2 iyun 2023 №41 (2010) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycana səfər etmək mənim və millətim üçün həyata keçən arzudur



Azərbaycanda yaşayan yəhudi icmasının üzvləri – Azərbaycan vətəndaşları ölkəmizin müasir inkişafına çoxlu töhfə vermiş və töhfə verən insanlardır. Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə çiyin-çiyinə vuruşublar. Bu gün bu, təkcə Azərbaycanın uğurlu inkişafı, mədəniyyətlərarası sülh və dostluq üçün yox, eyni zamanda, bizim ikitərəfli münasibətlərimiz üçün mühüm amildir.

Prezident İlham Əliyev bu sözləri mayın 30-da Bakıda İsrail Prezidenti İsxak Hersoq ilə görüşdən sonra mətbuata bəyanatında deyib.

İsrailin dövlət başçısının Azərbaycana səfərini yüksək qiymətləndirən İlham Əliyev qeyd edib ki, bu, ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirir. İki ölkə arasında əməkdaşlığın son vaxtlar xüsusilə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bildirib ki, bu il İsraildə Azərbaycan səfirliyinin açılması əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və daha sıx əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Azərbaycanın İsrailə xam neftin etibarlı təchizatçısı olduğunu və enerji sahəsində sıx əməkdaşlığın qurulduğunu diqqətə çatdıran dövlət başçısı qeyd edib ki, hazırda ticarət dövriyyəmiz 1,7 milyard dollardan çoxdur, eyni zamanda növbəti illərdə ticarət dövriyyəsini şaxələndirməyə çalışmalıyıq. İki ölkə arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, investisiya layihələri, interkonnektorların yaradılması və üçüncü ölkələrdə əməkdaşlıq layihələri üçün böyük imkanlar olduğunu deyən İlham Əliyev digər sahələrdəki potensiala da diqqət çəkib: “Biz, həmçinin irriqasiya və kənd təsərrüfatı sahəsində planlarımızı və artıq görülmüş işləri müzakirə etdik. Nisbətən bu yaxınlarda əməkdaşlığa başladığımız sahələrdən biri kibertəhlükəsizlik sahəsidir. Bu sahədə fəal təmasların başlanılmasına çox şadıq. Bu gün artıq sirr deyil ki, kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin mühüm hissəsidir. Əlbəttə ki, bu sahədə İsrail şirkətlərinin böyük təcrübəsi bizim üçün faydalı olacaq. Həmçinin gənc nəslin təlimi və tədrisi də məqsədlərimizə nail olmaq və özümüzü təhlükədən qorumaq üçün mühüm amil olacaq”.

*davamı səh. 2-də*

## Dialoq, əməkdaşlıq, təhlükəsizlik, sabitlik və rifah naminə

### 50-yə yaxın ölkə lideri Moldovada “Avropa siyasi birliyi” sammitində bir araya gəlib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Avropa siyasi birliyi” 2-ci Zirvə toplantısında iştirak etmək üçün mayın 31-də Moldova Respublikasına səfərə gedib.

Mayın 31-də Kişineuda Azərbaycan Prezidenti İlham Əliyevin Moldova Prezidenti Maya Sandu ilə görüşü olub. Görüşdə ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğu qeyd edilib, enerji, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə toxunulub, əlaqələrimizin perspektivləri müzakirə olunub. Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb, bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edilib. Beynəlxalq təşkilatlarda ölkələrimizin qarşılıqlı dəstəyi yüksək qiymətləndirilib, bu xüsusda Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri vurğulanıb.

Həmin gün Prezident İlham Əliyev Kişineuda Moldovanın Baş naziri Dorin Reçan ilə də görüşüb.

***

İyunun 1-də Moldovanın paytaxtı Kişineudan 35 kilometr məsafədə yerləşən qədim Bulboaka kəndində “Avropa siyasi birliyi” 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Zirvə toplantısına 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları qatılıb. Sammitdə sülh və təhlükəsizliyin təmin edilməsi, enerji təhlükəsizliyinin və Avropada ölkələrarası əlaqələrin gücləndirilməsi mövzularında müzakirələr aparılıb.

Həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələri bir araya gətirən platforma olaraq “Avropa siyasi birliyi”nin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. Bu formatda ilk sammit ötən ilin oktyabrında Çex Respublikasının paytaxtı Praqada keçirilib.

### Azərbaycan-Ermənistan normallaşma prosesi

İyunun 1-də Kişineuda “Avropa siyasi birliyi”nin 2-ci Zirvə toplantısı çərçivəsində enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş dəyirmi masa və işçi lanç təşkil olunub. Prezident İlham Əliyev hər iki toplantıda iştirak edib.

Həmin gün Kişineuda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında qeyri-rəsmi görüş olub.



Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.

Görüşdən sonra açıqlama verən Şarl Mişel Azərbaycan və Ermənistan liderləri ilə növbəti danışıqların iyulun 21-də Brüsseldə olacağını deyib. “Bizim mayda Brüsseldə toxunduğumuz bütün mövzuları – təhlükəsizlik, sərhədlərin delimitasiyası və sülh sazişi ilə bağlı məsələləri müzakirə etmək imkanımız oldu. Bu, iyulun 21-də Brüsseldə keçiriləcək növbəti görüş üçün çox yaxşı hazırlıq oldu. Bu, o deməkdir ki, biz çox çalışırıq və əlaqələrin normallaşması istiqamətində bütün müsbət səyləri dəstəkləmək niyyətindəyik”, – deyə o bildirib.

## Azərbaycan UNESCO-nun daha bir komitəsinə üzv seçilib

Xəbər verildiyi kimi, Azərbaycan UNESCO-nun daha bir qurumuna – “Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında” 1970-ci il Konvensiyası İştirakçı Dövlətlərinin İclasının Yardımçı Komitəsinə üzv seçilib.

Bununla bağlı mayın 30-da UNESCO-da 1970-ci il Konvensiyasına tərəf ölkələrin 7-ci sessiyası gedişində İkinci Seçki Qrupundan (Şərqi Avropa və Mərkəzi Asiya) səsvermə keçirilib. Olduqca rəqabətli səsvermədə 1970-ci il Konvensiyasına tərəf 125 ölkə iştirak edib və Azərbaycan 112 dövlətin dəstəyini qazanıb.

Xatırladaq ki, UNESCO-nun 1970-ci il Konvensiyası üzrə Yardımçı Komitədə 4 il müddətinə seçilən 18 ölkə təmsil olunur. Üzvlərdən yarısı iki ildən bir yenilənir.

Yardımçı Komitənin əsas funksiyalarına Konvensiyanın məqsədlərini təşviq etmək, iştirakçı dövlətlər tərəfindən UNESCO Baş Konfransına təqdim edilmiş milli hesabatları nəzərdən keçirmək, Konvensiyanın həyata keçirilməsinə töhfə verə biləcək tövsiyələrin və təlimatların hazırlanması, problemli vəziyyətləri, o cümlədən mədəni sərvətlərin qorunması və qaytarılması ilə bağlı məsələləri müəyyən etmək, mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə potensialın gücləndirilməsi tədbirləri ilə əlaqədar fəaliyyətlər və s. daxildir.

Yeri gəlmişkən, iyunun 3-də Azərbaycanın UNESCO-ya üzvlüyünün 31 ili tamam olur. Ölkəmiz indiyədək UNESCO-nun 10-dan çox konvensiyasına (o cümlədən 1970-ci il Konvensiyasına 1997-ci ildə) qoşulub.

Azərbaycan 2005-2019-cu illər ərzində İcraiyyə Şurasının, həmçinin bir sıra altkomitələrin üzvü olub. Hazırda ölkəmiz “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya”nın Hökumətlərarası Komitəsində (2019-2023), Bədən tərbiyəsi və idman üzrə Hökumətlərarası Komitədə (CIGEPS; 2019-2023), Kommunikasiyanın inkişafı üzrə Beynəlxalq Proqramın Hökumətlərarası Şurasında (2019-2023) təmsil olunur.

## Türkiyədə parlament və prezident seçkilərinin rəsmi nəticələri elan edilib

### İyunun 3-də Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimi keçiriləcək



Türkiyədə mayın 14-də keçirilmiş parlament (Türkiyə Böyük Millət Məclisi) seçkilərinin və mayın 28-də keçirilmiş prezident seçkilərinin 2-ci turunun yekun nəticələri açıqlanıb.

Türkiyə Yüksək Seçki Komissiyasının (YSK) iyunun 1-də açıqladığı məlumata görə, prezident seçkilərinin 2-ci turunda ümumilikdə 52 milyon 93 min seçici səs verib, səsvermədə iştirak 85,72 faiz təşkil edib. Yekun rəsmi nəticələrə əsasən, Rəcəb Tayyib Ərdoğan 52,18 faiz, Kamal Kılıçdaroğlu 47,82 faiz səs toplayıb.

YSK bir gün öncə parlament seçkilərinin yekunlarını da elan edib. Beləliklə, 600 yerlik TBMM-də “Cumhur İttifaqı” seçki bloku – hakim Ədalət və İnkişaf Partiyası (AK Partiya) 268, onun əsas müttəfiqi Milliyyətçi Hərəkat Partiyası 50, “Yenidən Rifah” Partiyası isə 5 yer olmaqla ümumilikdə 323 mandat əldə edib. Müxalif partiyalardan CHP 169 yer (o cümlədən CHP siyahısı ilə seçkiyə qatılmış dörd partiyadan 40 millət vəkili), Yaşıl Sol Partiya 61, İYİ Partiya 43, Türkiyə İşçi Partiyası 4 yer qazanıb.

İyunun 2-də 28-ci dönəm TBMM üzvlərinin, iyunun 3-də isə növbəti müddətə dövlət başçısı seçilmiş Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimi keçiriləcək. Prezident Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasiminə bir sıra ölkələrin dövlət başçılarının qatılacağı da bildirilir.

## “Həyat, deyəsən, gözəldir”



Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası tərəfindən “Həyat, deyəsən, gözəldir” (2021) tammetrajlı bədii filmi çəkilib.

Filmin ssenari müəllifi və rejissoru Xalq artisti Vaqif Mustafayev, təsvir rejissoru Orxan Abbasov, rəssamı Quram Navrozaşvili, geyim rəssamı Keti Kalandadze, bəstəkarı Tural Məmmədli, prodüseri Fariz Əhmədovdur. Əsas rollarda Hikmət Rəhimov, Sevinc Əliyeva, Nino Qomarteli, Dmitri Samxaradze, Giorgi Celiya və Aftandil Maxaradze çəkiliblər.

Ötən müddətdə bir neçə beynəlxalq festivala qatılan və haqqında xeyli danışılan ekran əsərinin, nəhayət, ölkə premyerası da gerçəkləşdi.

Mayın 26-da Azərbaycan Rəngkarlığı Muzeyində filmin təqdimatı keçirildi. Tədbirdə mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

*davamı səh. 3-də*

## Uşaqlar dünyanın sevincidir



1 iyun tarixi 70 ildir ölkələrin təqvimlərində əlamətdar günlərdəndir. Bu tarix dünyamıza sevinc bəxş edən uşaqların bayramı – Beynəlxalq Uşaqların Müdafiəsi Günüdür. Ölkəmizdə də hər ilin bu günündə tədbirlər, əyləncəli aksiyalar təşkil olunur. Uşaqların bayramı ilə bağlı bölgələrdə də tədbirlər keçirilib.

Masallı Tarix-Diyarşünaslıq Muzeyi və Masallı Dövlət Rəsm Qalereyasının əməkdaşları Masallı şəhər 1 saylı körpələr evi-uşaq bağçasını ziyarət ediblər. Mədəniyyət işçiləri fidanlara hədiyyələr verib, onlarla əyləncəli oyunlar oynayıb, rəqs ediblər.

Masallı rayon MKS-nin Qəzvinoba kənd kitabxana filialının təşkilatçılığı ilə orta məktəbdə “Uşaqlar bizim işıqlı sabahımızdır!” adlı tədbir keçirilib. Çıxışlarda dövlətimizin uşaq siyasəti ilə bağlı strategiyasının icrası istiqamətində görülən işlərdən bəhs olunub. Sonra uşaqların ifasında şeirlər səsləndirilib.

*davamı səh. 2-də*

Rəsm festivalının qalibləri mükafatlandırılıb



*səh. 3*

Azərbaycan Bəstəkarlar İttifaqı “Heydər Əliyev İli” çərçivəsində müsabiqə elan edib

*səh. 7*



Kinomuz “şofersiz” qaldı...

*səh. 5*

№41 (2010)
2 iyun 2023
www.medeniyyet.az

# Birinci xanımlar Qala qoruğundakı muzey kompleksini ziyarət ediblər

Mayın 30-da Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və İsrail Dövlətinin birinci xanımı Mixal Hersoq Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olublar.

Ziyarət zamanı kompleks və Qala kəndinin qədim tarixi barədə məlumat verilib.



Bildirilib ki, Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda abidələrin qorunması və qoruğun daha da zənginləşdirilməsi üçün 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb. Muzey kompleksinin ərazisində ölkəmizə, xüsusilə də Qala kəndinə və Abşeron yarımadasına xas arxeoloji memarlıq abidələri toplanıb və bərpa olunub. Burada qədim yaşayış məskənləri, kurqanlar, digər memarlıq abidələri ilkin görkəmində olduğu kimi nümayiş etdirilir.

Qonağa Azərbaycanın ənənəvi sənət növləri olan dulusçuluq, dəmirçilik, xalçaçılıq və ipəkçilik barədə də məlumat verilib. Diqqətə çatdırılıb ki, keçmişdə Qala kəndində bir sıra sənət sahələri inkişaf edib. Bu ərazidə arxeoloji qazıntılar zamanı aşkar edilən saxsı məmulatlar da bədii cəhətdən çox maraqlıdır.

Xanım Mixal Hersoq kompleksdəki "Toy evi", "Tacir evi" ilə də maraqla tanış olub. Diqqətə çatdırılıb ki, Qala kəndinin sakinləri qədim zamanlardan heyvandarlıqla da məşğul olublar. Qala kəndində taxılçılığın çox geniş inkişaf etdiyi barədə məlumat verilib, əl dəyirmanı vasitəsilə unun hazırlanması prosesi nümayiş olunub.

Komplekslə tanışlıqdan sonra Azərbaycanın və İsrailin birinci xanımları çay süfrəsi arxasında söhbət ediblər.

# İsrail Prezidenti və xanımı Heydər Əliyev Mərkəzi ilə tanış olublar

Azərbaycan Respublikasında rəsmi səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 30-da Heydər Əliyev Mərkəzində olublar.

Mərkəzin direktoru Anar Ələkbərov qonaqlara dünya memarlığının incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr, həmçinin Azərbaycan tarixinin, mədəniyyətinin və digər milli sərvətlərin təbliğinə xidmət edir.



Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi İsrail Prezidentində böyük maraq doğurub. İsxak Hersoq 1969-cu ildən 2003-cü ilədək Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərlə tanış olub.

Qonaqlar "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı eksponatlar nümayiş etdirilir. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Mini Azərbaycan" sərgisi ilə tanışlıq zamanı isə diqqətə çatdırılıb ki, bu ekspozisiyada Bakıda və Azərbaycanın regionlarındakı tarixi memarlıq abidələri və bir sıra müasir binaların maketləri nümayiş etdirilir.

İsrail Prezidenti və xanımı "Azərbaycan xalçası – ilmələrin rəqsi" adlı xalça kolleksiyası ilə də tanış olublar. Ali qonağa xalça kolleksiyası ilə bağlı kitab hədiyyə edilib.

# Ölkəmiz Asiya-Sakit Okean Turizm Assosiasiyasının sammitində təmsil olunur

30 may – 2 iyun tarixlərində Nepalın Pokhara şəhərində keçirilən Asiya-Sakit Okean Turizm Assosiasiyasının (Pacific Asia Travel Association – PATA) illik sammitində ölkəmiz də təmsil olunur. Tədbirdə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid və Dövlət Turizm Agentliyi (DTA) Turizm siyasəti və strategiya şöbəsinin müdiri Məhəmməd Muradov iştirak edir.

DTA-dan bildirilib ki, Florian Zenqstşmid mayın 31-də "Məsuliyyətli turizm sənayesi üçün çağırışlar və imkanlar" adlı sessiyada panel spikeri qismində iştirak edib. O, çıxışı zamanı Azərbaycanın dayanıqlı turizmin inkişafı istiqamətində atılan addımlar, quş müşahidəçiliyi və gəzinti marşrutları kimi dayanıqlı turizm təkliflərinin inkişaf etdirilməsi, ekoloji cəhətdən təmiz təcrübələrin təbliğinə diqqət yetirilməsi, eyni zamanda yerli mətbəx və qədim üsulların qorunmasını dəstəkləyən "Slou Fud" layihəsi kimi təşəbbüslər barədə söz açıb.

DTA-nın şöbə müdiri Məhəmməd Muradov PATA-nın regionda turizmin gələcəyi və qərarların qəbulu prosesinə həsr olunmuş hökumət nümayəndələrinin iclasında iştirak edib.

Qeyd edək ki, PATA-nın illik sammiti turizm sənayesinin inkişafındakı problemləri və fürsətləri müzakirə etmək üçün dövlət və özəl sektor təmsilçilərini bir araya gətirən platformadır. Azərbaycan PATA-ya 2019-cu ildə üzv olub.

# Azərbaycana səfər etmək mənim və millətim üçün həyata keçən arzudur

## İsrail Prezidenti: "Bizim ortaq baxışımız var. Aramızdakı bağlılıq dünyanı necə dəyişdirə biləcəyimizin və irəli gedə biləcəyimizin nümunəsidir"

*əvvəli səh. 1-də*



Prezident İlham Əliyev iki ölkənin müdafiə sənayesi sahəsində əməkdaşlığını xüsusi qeyd edib: "Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır".

Dövlət başçısı görüş zamanı qarşılıqlı turist axını səviyyəsinin qaldırılması ilə bağlı aparılan müzakirənin də əhəmiyyətini qeyd edib: "Həftədə yalnız dörd reys var və hesab edirəm ki, bu, yetərli deyil. Nümayəndə heyətlərinin üzvlərinə uçuşların sayının artırılması ilə bağlı göstərişlər verilmişdir və bunun təkcə mövsümi əsasda yox, – çünki adətən yay vaxtlarında daha çox uçuşlar olur, – daimi əsasda edilməsi tapşırılmışdır. Həmçinin İsraildə daha çox təqdimat imkanlarının araşdırılması da tapşırılmışdır ki, biz İsraildən daha çox turisti buraya dəvət edə bilək".

Prezident bu xüsusda Azərbaycanda yaşayan yəhudi icmasının, eləcə də İsraildə Azərbaycan diasporunu təmsil edən keçmiş həmvətənlərimizin qarşılıqlı münasibətlərdəki rolunu diqqətə çatdırıb: "Bilirəm ki, İsraildə yaşayan azərbaycanlılar ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynayırlar. Bizim dünya azərbaycanlılarının diaspor təşkilatları var, lakin yalnız bir ölkədə, İsraildə bu təşkilat əsasən yəhudi mənşəli insanlardan ibarətdir. Bu, aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirir. Bizim əsrlər boyu davam edən qarşılıqlı əlaqələr, dostluq və qarşılıqlı dəstək tariximiz var. Müstəqil ölkə olaraq Azərbaycanın, sadəcə, 31 yaşı var, lakin bizim qədim tariximiz var və Azərbaycandakı yəhudilər həmişə cəmiyyətimizin fəal və mötəbər hissəsi olmuşlar və bu gün də belə olmaqda davam edirlər. Beləliklə, bu, ölkələrimiz arasında, belə deyək, mədəni körpülərdir. Buna görə onların bizim ikitərəfli strateji əməkdaşlığımıza töhfəsi çox vacibdir".

Prezident İsxak Hersoq da mətbuata bəyanatında İsrail və Azərbaycan arasında bugünkü əlaqələrin mühüm tarixi kökləri olduğunu vurğulayıb. "Azərbaycana səfər etmək mənim üçün və millətim üçün həyata keçən arzudur" deyən İsxak Hersoq qeyd edib ki, bu səfər İsrail xalqı üçün və Azərbaycan xalqı ilə İsrail xalqı arasında birgə əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir: "Bizim əlaqələrimizin dərin kökləri var. Yəhudilərin bu ölkədəki irsinin kökləri, yeri gəlmişkən, özlüyündə nümunə olan nadir irsi və yəhudi icmalarının 120-130 il əvvəl meydana gəlməsi ilə Azərbaycanın dünyada yazdığı hekayəsinə öz böyük töhfəsini verib. Sülh, ümumi rifah, yaxşı işlərə dair birgə strateji baxışımızla birlikdə, yəhudilərlə müsəlmanlar arasında səmərəli, ədalətli, səmimi, dostcasına dialoq, bizim arzulaya və nümayiş etdirə biləcəyimiz bir baxışdır".

İsrail Prezidenti qeyd edib ki, müsəlman ölkəsi olan Azərbaycanla sıx münasibətlər, millətlərimiz arasındakı sevgi və bağlılıq dünyanı necə dəyişdirə biləcəyimizin və irəli gedə biləcəyimizin nümunəsidir: "Bizim ortaq baxışımız var, mən Azərbaycanın dünyada və regionda böyük təsirə malik olduğunu görürəm".

İki ölkə arasında bir çox sahələrdə əməkdaşlığı inkişaf etdirmək imkanları olduğunu deyən İsxak Hersoq bu imkanların realizə edilməsini səbirsizliklə gözlədiyini deyib.

Qeyd edək ki, mayın 30-da Azərbaycan və İsrail prezidentlərinin iştirakı ilə iki ölkənin müvafiq nazirlikləri arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı imzalanıb.

***

Prezident İsxak Hersoq mayın 30-da Bakıda, Heydər Əliyev Mərkəzində İsrail Dövlətinin Müstəqillik Günü (14 may) münasibətilə təşkil olunan rəsmi qəbulda çıxışı zamanı ölkələrimiz arasındakı əlaqələrin əhəmiyyətini bir daha vurğulayıb. Qeyd edib ki, bu il İsrail öz müstəqilliyinin 75-ci ildönümünü qeyd edir. Eyni zamanda ölkələrimiz arasında diplomatik əlaqələrin 30 illik tarixi var. İki ölkənin müstəqillik günləri bir-birinə yaxın tarixlərdə qeyd olunur. Ölkələrimiz arasındakı sıx əlaqələr yalnız qarşılıqlı marağa deyil, hər şeydən əvvəl ortaq dəyərlərə əsaslanır: "Yəhudilər üçün Azərbaycan təhlükəsiz məkandır, onlar burada inkişaf edib, öz mədəniyyətlərini qoruyub saxlayıblar. Yəhudilər yalnız öz icmaları çərçivəsində deyil, Azərbaycanın zəngin siyasi və mədəni mühitində də tərəqqi tapıblar. Bu, kiçik məsələ deyil. Dinlərarası əməkdaşlıq və xalqlararası tolerantlıq, qarşılıqlı hörmət hər iki ölkənin üstünlük verdiyi dəyərdir".

Mərasimdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova da bildirib ki, Azərbaycanla İsraili qarşılıqlı hörmət və etimada əsaslanan əsl dostluq münasibətləri birləşdirir. Mərasimdə İsrail Prezidentinə Azərbaycan xalçası hədiyyə olunub.

***

İsrail Prezidenti səfər əsnasında mayın 31-də Azərbaycandakı yəhudi icması ilə də görüşüb.

"Tarix göstərir ki, yəhudi xalqı ilə azərbaycanlılar arasında münasibətlər dərin köklərə malikdir. Yüz illərdir ki, Azərbaycan yəhudiləri Azərbaycan mədəniyyətinin və siyasətinin zəngin toxumasının bir hissəsidir. Dinlərarası əməkdaşlıq, mədəniyyətlərarası tolerantlıq, hörmət irsi bu dövrdə xalqlarımız üçün zamanın tələbidir və hamımızın dünyaya verdiyi hədiyyədir", – deyə o, görüş barədə "Twitter" hesabında bildirib.

# Qırğızıstan Xoreoqrafiya Məktəbinin direktoru BXA-da

Qırğızıstan Xoreoqrafiya Məktəbinin direktoru Erik Latıpov və məktəbin müəllimi, "Şattık" rəqs ansamblının rəhbəri Sırğa Latıpova Bakı Xoreoqrafiya Akademiyasında (BXA) olublar.



BXA-nın rəhbərliyi ilə görüşdə peşəkar kadrların hazırlanması, akademiyada mövcud fənlərin tədris metodikası, digər ölkələrin xoreoqrafiya təhsili sistemindən yararlanaraq aparılan təcrübə mübadiləsi və digər mövzulara toxunulub.

Qonaqlar akademiya ilə tanış olub, tədris prosesini izləyiblər. Dərs zamanı xalq rəqslərimizin qədim nümunələrindən olan "Azərbaycan", "Qaytağı", "İncəlik", "Məzəli rəqs", "Ağçiçək", "Turacı", habelə Üzeyir Hacıbəylinin "Koroğlu" operasından variasiyalar, "İgidlər" və "Çomaqla rəqs" tələbələr tərəfindən nümayiş etdirilib.

# Əməkdar artist "Utancaq qız"la diplom qazanıb

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru Əməkdar artist Şövqi Hüseynov Rusiyanın Lobnya şəhərində keçirilən XXVII "Rus klassikası" teatr festivalında iştirak edib. Beynəlxalq festivalda "Utancaq qız" monotamaşasını təqdim edən aktyor mükəmməl oyununa görə diploma layiq görülüb.

Fyodor Dostoyevskinin eyniadlı fantastik povesti əsasında Akademik Musiqili Teatrda hazırlanan səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimovadır. Festivalda Qazaxıstan, İran və digər ölkələrin teatr kollektivlərinin də tamaşaları nümayiş olunub.

Əməkdar artist Şövqi Hüseynov "Utancaq qız" monotamaşası ilə iyunun 1-də daha bir beynəlxalq layihəyə – "Onlife" rəqəmsal teatr festivalına qatılıb. Festivalda tamaşalar videoformatla nümayiş olunub.

# Uşaqlar dünyanın sevincidir

## Beynəlxalq Uşaqların Müdafiəsi Günü bölgələrdə də rəngarəng tədbirlərlə qeyd olunub

*əvvəli səh. 1-də*

Oğuz rayon MKS-nin Sincan kənd kitabxanası tərəfindən "Uşaqlar bizim gələcəyimizdir!" adlı səhnəcik təşkil edilib.

Ağcabədi şəhər Ü.Hacıbəyli adına Uşaq incəsənət məktəbi tərəfindən keçirilən tədbirdə fortepiano şöbəsinin şagirdləri Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa ediblər.

Əlamətdar gün münasibətilə Ağdam rayon Heydər Əliyev Mərkəzində Rzalar kənd tam orta məktəbinin şagirdləri ilə birgə tədbir keçirilib.

Şirvan-Salyan Regional Təhsil İdarəsi və Biləsuvar RMİ-nin təşkilatçılığı ilə Biləsuvar rayon Gənclər parkında "Uşaqlar dünyanın sevincidir" adlı tədbir keçirilib. Tədbirdə rəsm sərgisi nümayiş etdirilib, mahnılar və rəqslər təqdim olunub.

Cəbrayıl rayon Böyük Mərcanlı kənd Uşaq incəsənət məktəbinin təşkilatçılığı ilə əlamətdar günlə bağlı konsert keçirilib.

Şirvan şəhər Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Şirvan Folklor evində "Kiçik rəssamlar" adlı qrup sərgisi keçirilib. Sərgidə həvəskar uşaqların 30-dan çox rəsmi nümayiş olunub.





Yevlax rayon Aşağı Qarxun kənd Uşaq musiqi məktəbi "Gələcəyin ümidləri" adlı bayram tədbiri keçirib. Uşaqlar rəngarəng rəqslər, maraqlı səhnəciklər nümayiş etdirib, şeirlər səsləndiriblər. Tədris ili ərzində fərqlənmiş, müsabiqələrdə iştirak etmiş şagirdlər tərifnamə ilə təltif olunublar.

Qazax rayon Heydər Əliyev Mərkəzində Qazax şəhər 5 saylı körpələr evi-uşaq bağçasının balaca fidanlarının iştirakı ilə "Heydər babanın nəvələriyik" adlı tədbir təşkil edilib. Uşaqlar şeirlər söyləyib, mahnılar oxuyublar. Sonda cizgi filmləri nümayiş etdirilib.

Tovuz rayon Aşıq Ə.Rzayev adına Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə rayon Abulbəyli kənd 2 saylı körpələr evi-uşaq bağçasında "Uşaqlar gələcəyə bir körpüdür" adlı konsert proqramı təqdim olunub.

Gəncə şəhər MKS-nin 1 saylı kitabxana filialı C.Cabbarlı adına 6 saylı məktəblə birlikdə "Uşaqlara sülh, çiçəklərə günəş" başlığı altında səhnəcik təşkil ediblər.

Gəncə şəhər 4 nömrəli Uşaq musiqi məktəbində keçirilən konsertdə fortepiano, skripka və xalq çalğı alətləri şöbəsi şagirdlərinin ifasında rəngarəng mahnılar alqışlarla qarşılanıb.

**Hazırladı: N.Məmmədli**

# Mədəniyyət Nazirliyində Böyük Britaniya Baş nazirinin nümayəndəsi ilə görüş

## Azad edilmiş ərazilərdə mədəni infrastrukturun bərpası üzrə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib

Xəbər verildiyi kimi, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ölkəmizə səfər edib. Ənənəvi olaraq keçirilən Bakı Enerji Həftəsində iştirak etmək üçün Azərbaycana gələn xanım Emma Nikolsonun budəfəki səfəri də iki ölkə arasında təkcə iqtisadi münasibətləri deyil, eyni zamanda humanitar sahədə əməkdaşlığın geniş spektrini əhatə edir.




Mayın 30-da Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonla görüşüb.

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında mədəniyyət və yaradıcı sənayelər sahəsində əməkdaşlıq məsələlərinə nəzər salınıb, o cümlədən Britaniya Şurasının (British Council) Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi layihə və proqramların əhəmiyyəti qeyd olunub.

Azərbaycanın mədəni irsinin qorunması və dünyaya təqdim edilməsində Böyük Britaniya ilə əməkdaşlığın önəmi vurğulanıb, gələcəkdə musiqi, film sənayesi, muzey, heykəltəraşlıq, ədəbiyyat sahələrində görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Azərbaycanın erməni işğalından azad olunmuş torpaqlarında dağıdılmış mədəni infrastrukturun, eləcə də heykəltəraşlıq nümunələrinin bərpası ilə bağlı ekspertlərin cəlb edilməsi, yeni metodikaların tətbiqi məsələləri də müzakirə olunub.

Qeyd edək ki, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi 2016-cı ildən bu yana Azərbaycana dəfələrlə səfər edib və bu səfərlər zamanı ikitərəfli mədəni əlaqələrə diqqət ayrılıb, xanım Nikolson Bakıdakı aparıcı mədəniyyət ocaqlarının fəaliyyəti ilə tanış olub. Həmçinin onun Vətən müharibəsindən (2020) sonra ölkəmizə səfərləri əsnasında işğaldan azad edilən ərazilərdəki vəziyyət, otuz ilə yaxın müddətdə erməni işğalçıları tərəfindən xalqımızın mədəni irsinə qarşı həyata keçirilən vandalizm aktları, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ərazilərdə aparılan geniş quruculuq işləri nəzərə çatdırılıb. 2022-ci ildə Emma Nikolson Milli İncəsənət Muzeyinin “Mədəniyyətimizin incisi Qarabağ”, “Azərbaycan incəsənəti minilliklər boyu” sərgilərini ziyarət edib. Bu günlərdə, 2023-cü il mayın 25-də isə Böyük Britaniyanın Baş nazirinin nümayəndəsi Londondakı dünyaca məşhur Viktoriya və Albert Muzeyinin “Rafael” qalereyasında Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan incəsənəti gecəsində iştirak edib.

# Rəqəmsal platformaları cəmiyyət üçün faydalı məzmunla necə zənginləşdirmək olar?

## Aktual məsələ “TikTok” platformasının nümayəndələri ilə müzakirə edilib

Mədəniyyət naziri Adil Kərimli mayın 31-də ölkəmizdə səfərdə olan “TikTok” platformasının Şərqi Avropa regionunda dövlət qurumları ilə iş üzrə direktoru Sergey Sokolov və platformanın nümayəndələri ilə görüşüb.

Qonaqları salamlayan Adil Kərimli vurğulayıb ki, müasir rəqəmsal platformalar cəmiyyətdə, fərdlərin və ictimai fikrin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan yeni, maraqlı məzmunun yaradılması, rəqəmsal məzmunun keyfiyyətinin yüksəldilməsi yeni mədəniyyət strategiyasının bir neçə prioritet istiqaməti ilə əhatə olunacaq fəaliyyətdir.

Qeyd olunub ki, “TikTok” ölkə üzrə 600 minə qədər istifadəçisi olan ən böyük platformalardan biridir, ona görə də buradakı məzmunun pozitiv, mənəvi dəyərlərə söykənən, elmi təbliğata köklənmiş, maarifləndirici istiqamətdə inkişafı vacib şərtlərdən biridir. Bu platformada Azərbaycan mədəniyyətinin təbliği, davranış mədəniyyətinin formalaşdırılması və bu kimi məqsədlərə xidmət edən rəqəmsal məzmunun yerləşdirilməsi üçün geniş imkanlar mövcuddur. Keyfiyyətli rəqəmsal məzmunun yaradılmasının təşviqi Azərbaycan Mədəniyyət Nazirliyinin vəzifələrindən irəli gəlir və bu baxımdan “TikTok” platformasından qeyd olunan istiqamətlərdə istifadə imkanları qiymətləndirilməlidir.

Son zamanlar bir çox ölkələrdə “TikTok” platformasından sui-istifadə halları da müşahidə olunmaqdadır. Cəmiyyətlərin maraqlarına, ümumbəşəri dəyərlərə zidd məzmunların paylaşılması nəticəsində insanlarda və bütövlükdə cəmiyyətdə dözümsüzlük, mənəvi və estetik primitivizm, intellektual deqradasiya artır, faydalı ola biləcək resursun imkanlarından zorakılığın təbliğatı və bu kimi mənfi tendensiyaların yaranması üçün istifadə edilir.

Qeyd olunan məsələlərin həlli, bu platformanın daha da təkmilləşdirilməsi və orada yerləşdirilən yerli məzmunun keyfiyyətinin və faydalılığının artırılması məqsədilə qarşılıqlı sıx əməkdaşlığın həyata keçirilməsi önəmlidir.

Qonaqlar “TikTok” platformasının fəaliyyət mexanizmləri və hüquqi çərçivələri haqqında nazirə ətraflı məlumat veriblər, Azərbaycan mədəniyyəti ilə bağlı məzmunun keyfiyyətinin artırılması üçün əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, “TikTok” son illər sosial şəbəkə platformaları və mobil tətbiqlər arasında geniş populyarlıq qazanan vizual platformadır. 2016-cı ildə Çində yaradılan və 2018-ci ildə beynəlxalq versiyası istifadəyə verilən videoplatforma qısa müddətdə bütün dünyada yayılıb. Hazırda 150-dən çox ölkədə 1 milyarda yaxın istifadəçisi var. “TikTok”un onlarla ölkədə nümayəndəliyi fəaliyyət göstərir. Videoplatformanın interfeysi 50-dək dildə təqdim olunur.

# “Yeni adlar”da piano axşamı

## Layihə çərçivəsində solo konsertlər başlayıb




Mədəniyyət Nazirliyinin “Yeni adlar” layihəsi müasir Azərbaycan ifaçılıq sənətinin inkişafı, bu sahədə yeni istedadlı nəslin yetişməsi və tanınması məqsədi daşıyır. 2022-ci ilin mart ayından həyata keçirilən layihə maraqlı konsert proqramları ilə davam edir. Bu il layihə Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunub.

Mayın 31-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) böyük zalında “Yeni adlar”ın növbəti konserti keçirildi.

Pianoçu, respublika və beynəlxalq müsabiqələr laureatı Nərgiz Kəngərli (Nəcəfova) solo konsert proqramı ilə çıxış etdi.

Konsertdən əvvəl BMA-nın beynəlxalq əlaqələr, sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Xalq artisti Yeganə Axundova diqqətə çatdırdı ki, “Yeni adlar” layihəsi çərçivəsində bu günədək 20-dən artıq gənc musiqiçi M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində orkestr müşayiəti ilə çıxış edib. Layihə çərçivəsində artıq solo konsertlər başlayır. Bu konsertlərin ilki pianoçu Nərgiz Kəngərli tərəfindən təqdim olunacaq.

Sonra musiqiçi səhnəyə dəvət edildi. Proqramda R.Şumanın “Simfonik etüdlər” (op.13), P.Çaykovskinin “Dumka” (op.59) və S.Prokofyevin “4 nömrəli sonata” (op.29) əsərləri səsləndirildi və tamaşaçıların alqışları ilə qarşılandı.

***

Nərgiz Kəngərli 1991-ci ildə Bakıda anadan olub. 2008-ci ildə BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasını, 2012-ci ildə BMA-nı bakalavr, 2004-cü ildə isə magistr səviyyəsi üzrə fərqlənmə diplomu ilə başa vurub.

Gənc yaşlarından başlayaraq ölkəmizdə və xaricdə konsertlərdə, festival və müsabiqələrdə çıxış edib. 2004-cü ildə pianoçuların Q.Qarayev adına II Beynəlxalq müsabiqəsinin laureatı olub. 2007-ci ildə Kövkəb Səfərəliyevanın 100 illiyinə həsr olunmuş gənc pianoçuların I Respublika müsabiqəsində III yerə layiq görülüb. 2012-ci ildə Litvada keçirilən “Hüdudsuz musiqi” (“Music Without Limits”) XII Beynəlxalq festival-müsabiqəsində, 2015-ci ildə VII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunan pianoçuların müsabiqəsində laureat adını qazanıb. 2021-ci ildə Gürcüstanda “Dünya harmoniyası” (“World Harmony”) IV Beynəlxalq müsabiqəsində üç fəxri diploma layiq görülüb. Pianoçu 2013-cü ildən BMA-da pedaqoji fəaliyyətlə də məşğuldur.

**Nurəddin**

# “Həyat, deyəsən, gözəldir”

## Çoxdan gözlənilən premyera baş tutdu…

*əvvəli səh. 1-də*

Filmin nümayişindən əvvəl Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov çıxış edərək Azərbaycan kino sənətində iz qoyan rejissorlardan, kino sənətimizdə rejissor əməyindən söz açdı. O, rejissor Vaqif Mustafayevin özünəməxsus yaradıcılığından danışaraq növbəti filmin də bu silsilədən maraqlı bir ekran əsəri olduğunu dedi.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Şəfiqə Məmmədova, Xalq artisti Oqtay Mirqasımov, yazıçı-publisist Əlisəftər Hüseynov, Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi Əli İsa Cabbarov Vaqif Mustafayevin zəngin yaradıcılığı və ekranlaşdırdığı filmlərin özünəməxsusluğu, kino estetikası barədə çıxış etdilər.

Oqtay Mirqasımov ekran əsərinin TÜRKSOY-un təşkilatçılığı ilə ötən il Türkiyənin Bursa şəhərində keçirilən II “Qorqud Ata” Türk Dünyası Film Festivalındakı uğurundan danışdı. Diqqətə çatdırdı ki, bu filmə görə Vaqif Mustafayev “Türk dünyasının ən yaxşı rejissoru” mükafatı ilə təltif edildi.

Yazıçı-publisist Əlisəftər Hüseynov qeyd etdi ki, filmin ideoloji, dövlətçilik baxımından böyük gücü var. Vaqif Mustafayevin filmlərində gülüşün bütün spektrləri sintez olunaraq keyfiyyət yaradır və rejissorun həyata baxışını ehtiva edir. Bu yumor bəzi hallarda absurda, bəzən də paradoksa gəlib çıxan yanaşmadır. Filmdə müsbət erməni obrazı da var. Bunlardan biri aşıq-şair Sayat Nova, digəri Azərbaycan Ordusunun atdığı bombadan sonra “ağıllanan” erməni əsgərdir. Bu film uydurma erməni mifini tam dağıdır, Azərbaycan xalqının əzmkar ruhunu göstərir.

Vaqif Mustafayev filmin lentə alınması prosesindən söz açdı. Dedi ki, filmdə erməni dilində nitqlərin və yazıların ərsəyə gəlməsində Əməkdar mədəniyyət işçisi, tanınmış televiziya prodüseri və rejissoru mərhum Oqtay Əliyev və ailəsinin çox böyük köməyi olub.



Rejissor daha sonra filmin yaradıcı heyətini səhnəyə dəvət edərək hər kəsə təşəkkürünü bildirdi.

Çıxışlardan sonra “Həyat, deyəsən, gözəldir” filmi nümayiş olundu.

Birinci Qarabağ müharibəsindən bəhs edən “Fəryad” (1993, rejissor C.Mirzəyev, ssenari müəllifi V.Mustafayev) filminin davamı kimi nəzərdə tutulan ekran işində erməni daşnaklarının işğal etdiyi, otuz ilə yaxın müddətdə talayıb viran qoyduğu Qarabağ torpaqları uğrunda gedən 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən bəhs olunur. Azərbaycan Ordusunun hücumları nəticəsində ermənilər aciz qalır, təlaşa düşürlər. Əsir alınan erməni əsgərlər arasında iki qardaş da var. Onların sonrakı aqibəti tragikomik planda təqdim edilir.

**L.Azəri**

# Apelyasiya Şurasının iclası keçirilib

Mayın 31-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Apelyasiya Şurasının növbəti iclası keçirilib. Nazir müavini Səadət Yusifovanın sədrliyi ilə keçən iclasda Mədəniyyət Nazirliyində vakant olan dövlət qulluğu vəzifələrinin tutulması ilə bağlı Dövlət İmtahan Mərkəzinin (DİM) 13 yanvar 2023-cü il tarixində elan etdiyi müsabiqə üzrə keçirilmiş müsahibələrin nəticələrinə yenidən baxılması ilə bağlı 14 nəfər namizədin apelyasiya şikayətləri nəzərdən keçirilib. 14 nəfərdən 3-ü iclasda iştirak etməyib.

İclas zamanı namizədlərin müsahibə ilə bağlı fikirləri dinlənilib, DİM tərəfindən təqdim edilmiş müsahibələrin videoçəkilişinə və sənədlərinə əsasən, Şura üzvlərinin hazırladığı rəylər müzakirə olunub.

Şura üzvlərinin səsverməsi ilə iclasda baxılan məsələlərə dair qərarlar qəbul olunub.

3 nəfər namizədlə keçirilmiş müsahibələrin nəticəsi dəyişdirilib və onlar iddia etdikləri vəzifəyə uyğun hesab edilib. 11 nəfərin şikayətləri ilə əlaqədar qəbul edilən qərarlara əsasən, həmin namizədlərlə əvvəl keçirilmiş müsahibələrin nəticəsinə dair müsahibə komissiyasının qərarları tam obyektiv və əsaslı hesab edilərək dəyişdirilməyib.

# “Azərbaycanım” rəsm festivalı yekunlaşıb

## Qaliblər mükafatlandırılıb

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqı, Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə “Azərbaycanım” VI Respublika Uşaq Rəsm Festivalı keçirilib. Bu il “Heydər Əliyev İli”nə həsr olunan ənənəvi festival çərçivəsində rəsm müsabiqəsi gerçəkləşib.



Mayın 27-də Xətai Rayon İcra Hakimiyyəti binasının qarşısında festivalın yekun sərgisi açılıb.

Tədbirdə Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini Rafiq İsayev, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Xalq artisti Ağaəli İbrahimov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov və başqaları çıxış ediblər.

Xətai rayonunda fəaliyyət göstərən musiqi kollektivlərinin çıxışlarından sonra rəssam Cəlal Ağayevin ustad dərsi keçirilib.

Sonda festivalın qalibləri elan olunub.

15-21 yaş kateqoriyası üzrə Narın Zeynalabduyeva (Azərbaycan Rəssamlıq Akademiyası) I, Gülrux Vəzirova (T.İsmayılov adına 6 saylı məktəb-lisey) II, Fəridə Xudaverdiyeva (“EDUGrata” təhsil mərkəzi) III yerlərə layiq görülüblər.

11-15 yaş kateqoriyası üzrə Hüseyn Süleymanlı (4 saylı Uşaq incəsənət məktəbi), Məhəmmədəli Əzizli (İmişli rayon Uşaq incəsənət məktəbi) və Selcan Abbaslı (Kəlbəcər Uşaq incəsənət məktəbi) ilk üç yerin sahibi olublar.

11 yaşa qədər uşaqlar arasında I yeri Furqan Əliyev (“EDUGrata” təhsil mərkəzi), II yeri Məlahət Kərimzadə (248 saylı tam orta məktəb), III yeri Nuran Musayev (Kürdəmir şəhər 5 saylı tam orta məktəbi) qazanıb.

Qaliblərə diplom və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, festival çərçivəsində keçirilən “Güllər” adlı yaradıcılıq müsabiqəsinə şəhər və rayonlardan 500-dən çox məktəb və yaradıcılıq müəssisəsindən 2500-ə qədər uşaq, yeniyetmə və gənc 3000-dən çox əsər göndərib. Onların sırasından 800-dən artıq əsər seçilərək mərhələli şəkildə Xətai Sənət Mərkəzində sərgilənib. Hər yaş kateqoriyasından 10 uşaq olmaqla, ümumilikdə 30 nəfər sərgiyə dəvət edilib.

# Mərkəzi İncəsənət Məktəbinin Qazaxda “Dostluq görüşü”

Mədəniyyət Nazirliyi və Ağstafa Regional Mədəniyyət İdarəsinin dəstəyi, Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbi və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin (MİM) təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə və 28 May – Müstəqillik Gününə həsr olunmuş “Dostluq görüşü” adlı tədbir keçirilib.




Mayın 27-də təşkil olunan tədbirdən əvvəl Ulu öndərin Qazax şəhərindəki abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb. Sonra tədbir iştirakçıları Qazax rayon Heydər Əliyev Mərkəzində Ümummilli liderin həyat və fəaliyyətini əks etdirən sənədlər və fotolarla tanış olublar.

Qazax Şəhidlər xiyabanı və bölgənin şair və yazıçıları, tarixi şəxsiyyətləri haqqında məlumatları özündə əks etdirən park da ziyarət edilib.

Daha sonra tədbir Qazax şəhər Mədəniyyət Mərkəzində davam etdirilib. Mərkəzi İncəsənət Məktəbi Nəzəriyyə şöbəsinin müdiri musiqişünas Nabat Əsgərovanın aparıcılığı ilə konsert proqramı təqdim olunub. Bir-birindən maraqlı musiqi nömrələri alqışlarla qarşılanıb.

Tədbirin sonunda MİM-in direktoru Əməkdar artist Əziz Qarayusifli çıxış edərək göstərilən diqqət və qayğıya, qonaqpərvərliyə görə öz təşəkkürünü bildirib.

Ağstafa RMİ-nin Qazax rayon üzrə nümayəndəsi Valeh Vəliyev, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov və başqaları çıxış edərək Heydər Əliyevin mədəniyyətimizin inkişafına diqqət və qayğısından danışıblar.

“Dostluq görüşü” mayın 28-də “Avey” Dövlət Tarix-Mədəniyyət Qoruğunun Damcılı filialına və Göyəzən dağına ekskursiya ilə başa çatıb.

# Vətəndaşların növbəti qəbulu Xaçmazda keçirilib

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən hər ay şəhər və rayonlarda vətəndaşların qəbulu keçirilir.

Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu mayın 26-da Xaçmaz şəhərində gerçəkləşib. Qəbulda həmçinin mədəniyyət nazirinin müavini Səadət Yusifova, aparat rəhbəri Xanlar Ağalarov və struktur bölmələrin rəhbərləri də iştirak ediblər.



Xaçmaz Şəhər Tarix-Diyarşünaslıq Muzeyində keçirilən qəbulda əsasən Xaçmaz, Quba və Qusar rayonlarından, eləcə də digər bölgələrdən sakinlər iştirak ediblər.

Görüşdə vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, əməyin qiymətləndirilməsi, mədəniyyət müəssisələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması və digər məsələlərlə bağlı olub. Həmçinin yerlərdə mədəni fəaliyyətlə bağlı təkliflər səsləndirilib.

# "Naxçıvan – bəşəriyyətin beşiyi"

## Rəsm festivalı altıncı dəfə təşkil edilib

29-31 may tarixlərində "Naxçıvan – bəşəriyyətin beşiyi" VI Beynəlxalq Rəsm Festivalı keçirilib.




Festivalın açılışında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, millət vəkili Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdir müavini Tural Rzayev, muxtar respublika mədəniyyət nazirinin müavini Həsən Kərimov, Azərbaycan Rəssamlar İttifaqının katibi Ağəli İbrahimov çıxış ediblər.

Bildirilib ki, ənənəvi festival bu il Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Festivala Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Ukrayna, Bolqarıstan, Rusiya, Finlandiya və Latviyadan 60-dək rəssam qatılıb. Artıq altıncı dəfə reallaşan layihə, mədəniyyətimiz üçün əlamətdar hadisə olmaqla yanaşı, rəssamlar üçün geniş yaradıcılıq imkanları açır.

Mərasimdə muxtar respublikanın mədəniyyət kollektivləri tərəfindən musiqi və rəqs nümunələri təqdim edilib. İştirakçılar rəsm əsərləri ilə tanış olublar.

# İçərişəhərdə kitab bayramı

Xəbər verildiyi kimi, 27 may – 4 iyun tarixlərində İçərişəhərdə Milli Kitab Sərgisi keçirilir. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilati dəstəyi ilə gerçəkləşən sərgidə bir çox müstəqil nəşriyyatlar iştirak edir. Kitab bayramında müxtəlif təqdimatlar, yerli və xarici yazarlarla görüşlər, imza günləri, panel müzakirələr, poeziya axşamları təşkil edilir, minlərlə kitab 70 faizədək endirimlə oxuculara təqdim olunur.



Mayın 30-da Bakı Fotoqrafiya Evində Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) tərəfindən "Heydər Əliyev İli"nə həsr olunmuş "Oxu mədəniyyəti" layihəsi çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Xalq yazıçısı Anarın 85 illik yubileyi münasibətilə "Gəlin, birgə oxuyaq!" adlı tədbir keçirilib.

UNEC Kitabxana-İnformasiya Mərkəzinin direktoru tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayeva layihə barədə məlumat verib.



"Qobustan" jurnalının baş redaktoru Pərvin Nurəliyeva Anarın yaradıcılıq yolu və ictimai fəaliyyətindən söz açıb. Sonra o, Anarın "Unudulmaz görüşlər", "Səhər-səhər: esselər, publisistik yazılar" və s. kitablarını UNEC-in Kitabxana-İnformasiya Mərkəzinə hədiyyə edib.

Sonda UNEC Yaradıcılıq Mərkəzində bədii qiraət dərnəyinin üzvü, II kurs tələbəsi Nihat İskəndərli Anarın "Asqılıqda işləyən qadının söhbəti", "Sayların sərgüzəşti" hekayələrini qiraət edib.

Həftəsonunadək İçərişəhərdə davam edəcək kitab sərgisində müxtəlif nəşriyyatların çap nümunələri yer alıb. "Ting" nəşriyyatı tərəfindən sərgidə uşaqlar üçün 40-dan çox kitab təklif olunur. Oxucular "Ting"in son aylar işıq üzü görən kitablarını nəşriyyatın direktoru, uşaq yazarı Çinarə Köçərlinin imzası ilə də əldə edə bilərlər. İyunun 1-də Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə nəşriyyat tərəfindən 8 müxtəlif növ boyama kitabçası sərgiyə gələn balacalara hədiyyə edilib. Ç.Köçərli uşaqlara kitablarından hekayələr oxuyub, viktorina təşkil edib. Fərqlənən uşaqlara hədiyyələr verilib.

Sərgidə nəşriyyatlarla yanaşı sənətkarlar da öz əl işlərini ziyarətçilərə təqdim edirlər.

**Nurəddin**

# Laçında İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulub

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27-28 may tarixlərində Laçın rayonuna səfəri zamanı bir sıra təməlqoyma və açılış mərasimində iştirak edib.

Mayın 28-də dövlət başçısı Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoyub.

Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerlə yeksan edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır.

Mədəniyyət naziri Adil Kərimli dövlət başçısına Laçında qurulacaq İşğal və Zəfər Muzeyi Kompleksi barədə məlumat verib.



Bildirilib ki, kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi Memorial parkdan ibarət olacaq. Kompleksin loqosu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir. Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir.

Muzeyin binası əzəmətli və estetik gözəlliyi ilə fərqlənən memarlıq quruluşuna malikdir. Binanın təpənin yamacına doğru uzanması sabitlik və dayanıqlılığı ifadə edir. Rəmzi olaraq binanın quruluşu torpaqdan güc alaraq səmaya doğru yüksəlişi təcəssüm etdirir. Binanın qismən yerin alt hissəsinə keçən maili forması sayəsində muzeyin ümumi daxili sahəsi 2400 kvadratmetr təşkil edir.

Muzeyin interyeri hər tərəfdən rahat giriş imkanı yaratmaq və ətrafdakı parkla inteqrasiyanı təmin etmək üçün xüsusi formada dizayn olunub. Ərazinin relyefi ilə ahəng yaradan tikilinin dam hissəsində həm binanın daxilindən lift vasitəsilə, həm də Memorial parkdan keçid imkanı olan iki panoramlı terras yerləşəcək.

Beş mərtəbədən ibarət olacaq muzeyin birinci mərtəbəsində bilet satış mərkəzinin yerləşdiyi geniş foyenin və inzibati otaqların yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə İşğal Muzeyi, üçüncü mərtəbədə kafe, dördüncü mərtəbədə isə Zəfər Muzeyi yaradılacaq. Sonuncu – beşinci mərtəbədə istirahət zalı və kitab mağazasından ibarət olan və yuxarı hissədən binaya girişi təmin edən foye yerləşəcək.

İşğal və Zəfər muzeylərinin yerləşdiyi mərtəbələrdə muzeylərin tematikasını əks etdirən bədii instalyasiyalar nümayiş olunacaq, zallarda isə müxtəlif məzmunlu sərgilər təşkil ediləcək.

Kompleksin ərazisində şəhərin dağıdılmış bir çox tarixi və mədəni abidələrinin qalıqlarının nümayiş etdiriləcəyi Memorial park salınacaq. Memorial parka daxil olan dağıntılar bədii instalyasiyalarla zənginləşdiriləcək açıq səma altında muzeyə çevriləcək.

Muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən və Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

# Bölgələrdə "Heydər Əliyev İli" münasibətilə tədbirlər davam edir





Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı, Quba Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Oxu bayramı" keçirilib. Çıxış edənlər kitab və mütaliəyə marağın artırılması, kitabxanaların bu sahədə daha fəal rol oynaya bilməsindən söz açıblar. B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzi, rayon Uşaq incəsənət və musiqi məktəbləri kollektivlərinin ifasında konsert proqramı təqdim edilib.

Quba rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə "Heydər Əliyev və uşaqlar" adlı tədbir keçirilib. İştirakçılar "Əbədiyaşar lider" adlı kitab sərgisi ilə tanış olublar.

***





Salyan şəhər Uşaq incəsənət məktəbi rayonun Aşağı Kürkənd kənd tam orta məktəbində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan konsert proqramı ilə çıxış edib.

***

Sabirabad Rayon İcra Hakimiyyəti və Sabirabad Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş kitab sərgisi keçirilib. Sərgidə kitabxananın fondunda yer alan kitablar nümayiş etdirilib.

***

Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbində "Azərbaycanın memarı" adlı 2022-2023-cü tədris ilinin hesabat konserti təşkil olunub. Məktəbin müəllim və şagird kollektivinin ifasında musiqilər, rəqslər və müxtəlif səhnəciklər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***

İmişli rayon Məzrəli kənd Diyarşünaslıq evi və kənd kitabxanasının təşkilatçılığı ilə "Tarix yaradan şəxsiyyət" adlı konsert keçirilib. İncəsənət ustalarının və şagirdlərin ifalarında Ümummilli liderə həsr edilmiş şeirlər, mahnılar səsləndirilib.

***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Hamarkənd kənd orta məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə "Heydər Əliyev və Azərbaycan tarixi" adlı tarix dərsi keçirilib.

***

Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" ilə bağlı Xalq yazıçısı İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesi əsasında hazırlanan tamaşa nümayiş olunub. Gəncə Dövlət Universiteti tələbələrinin təqdimatında göstərilən tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb.

***

Şəmkir Rayon İcra Hakimiyyəti və Şəmkir RMİ-nin birgə təşkilatçılığı ilə "Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir!" adlı tədbir keçirilib. Çıxışlardan sonra yerli incəsənət ustaları tərəfindən Heydər Əliyevin vaxtilə sevə-sevə dinlədiyi musiqilər səsləndirilib, məktəblilər şeirlər söyləyiblər.





RMİ-nin Göygöl rayon nümayəndəliyi, rayon İcra Hakimiyyəti və YAP Göygöl rayon təşkilatının birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Azərbaycanı dünyaya tanıdan lider" mövzusunda tədbir keçirilib. Rayon icra başçısının müavini Kəmalə İbrahimova, Musiqi məktəbinin direktoru Nuranə Quliyeva, RMİ-nin Göygöl rayonu üzrə nümayəndəsi Nurəddin Babazadə və başqaları çıxış ediblər. Ulu öndərin həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib.

***

Ucar rayon Heydər Əliyev Mərkəzi, Mərkəzi Aran Regional Təhsil İdarəsinin Ucar rayon üzrə Təhsil sektorunun və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Ucar rayon komitəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan" adlı təqdimatın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Ucar şəhər 4 nömrəli tam orta məktəbin X sinif şagirdi Almaxanım Qəhrəmanova, Ramal kənd ümumi orta məktəbin IX sinif şagirdi Emil Abdullayev, Bərgüşad kənd 2 nömrəli tam orta məktəbin IX sinif şagirdi Gülnarə Həsrətova ilk üç yerə layiq görülüb.

***

Qazax rayon Heydər Əliyev Mərkəzində "Ümummilli lider Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı sərgi təşkil edilib. Ulu öndərin 100 illiyinə həsr olunan və dahi siyasətçinin Azərbaycan mədəniyyətinin inkişafı, dünyada tanıdılması, qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində əvəzsiz xidmətlərinin təbliği məqsədilə təşkil edilən sərgi ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

***

Astara rayon Heydər Əliyev Mərkəzində rəssam Firudin Quliyevlə gənclərin görüşü təşkil olunub. Görüşdə Heydər Əliyevin həyat yolu, dövlətçilik fəaliyyəti, azərbaycançılıq ideologiyası, mədəniyyətimizin inkişafı istiqamətində göstərdiyi əvəzsiz xidmətlərdən söz açılıb.

***

Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzində "Ulu bir sərkərdə, Ulu bir öndər" adlı konsert təşkil edilib. Mərkəzin "Dostluq" Mədəniyyət evinin kollektivi tərəfindən mahnılar, rəqslər və şeirlər təqdim olunub.

Abşeron rayon Xırdalan şəhər Musiqi məktəbinin kollektivi "Heydər Əliyev İli" münasibətilə Qəbələ rayon Mədəniyyət Mərkəzi, Zaqatala rayon və Balakən şəhər uşaq incəsənət məktəblərində konsert proqramları ilə çıxış ediblər.

**Hazırladı: N.Məmmədli**

# "Külə dönmüş arzular" tamaşası nümayiş olunub

Balakən rayon Mədəniyyət Mərkəzində rayon narkomaniyanın fəsadlarından bəhs edən "Külə dönmüş arzular" tamaşası hazırlanıb. Təhsil sektorunun dəstəyi ilə Pakizə Hüseynova və Mirzəağa Məmmədovun ssenarisi əsasında səhnələşdirilən tamaşaya Mədəniyyət Mərkəzinin əməkdaşı Zöhrə Bakayeva quruluş verib.

Tamaşanın ilk nümayişi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası (NMDK) Balakən rayon komissiyasının təşkilatçılığı ilə M.Müşfiq adına Gərəkli kənd tam orta məktəbində reallaşıb.

Nümayişdən əvvəl rayon İcra Hakimiyyəti başçısının birinci müavini, NMDK rayon komissiyasının sədri Turan Dibirov çıxış edərək əsrin bəlasına çevrilmiş narkomaniyanın fəsadlarından, bu qorxulu bəlaya qarşı aparılan mübarizə tədbirlərindən danışıb.



Mədəniyyət Mərkəzinin dram dərnəyinin üzvlərinin oynadığı tamaşa maraqla qarşılanıb.

Sonda tamaşaçılara NMDK rayon komissiyası tərəfindən hazırlanmış maarifləndirici bukletlər təqdim olunub. Kollektiv səhnə əsərini müxtəlif kəndlərdə göstərməyi planlaşdırır.

# Kinomuz "şofersiz" qaldı...

## Elxan Qasımov 78 illik ömründə saflığı, qüruru və mərdliyi ilə sevildi, seçildi

Xəbər verdiyimiz kimi, tanınmış aktyor, rejissor, Əməkdar artist Elxan Qasımov mayın 29-da, ömrünün 78-ci ilində dünyasını dəyişib.



Mayın 30-da mərhumun evində sənətkarla vida mərasimi keçirildi. Mərasim uzun illər çalışdığı "Azərbaycanfilm" kinostudiyasının həyətində davam etdi. Sənət dostları həmkarlarına son vəfa borclarını yerinə yetirdilər. Vida mərasimində Mədəniyyət Nazirliyinin nümayəndələri, incəsənət xadimləri, mərhumun ailə üzvləri, sənət dostları iştirak edirdi. Elxan Qasımov Xırdalan qəbiristanlığında oğlu Samirin məzarı yanında torpağa tapşırıldı.

### Bizim Elxan müəllim...

Çoxları Elxan Qasımovu "Əhməd haradadır?" filminin (1963) dillər əzbəri qəhrəmanı – "Şofer Əhməd" kimi tanısa da, həmkarlarımızla onu "bizim Elxan müəllim" deyə adlandırardıq. Çünki hər kəs onu çox sevirdi. Xüsusən də mətbuat nümayəndələri. Heç kimin qəlbini qırmaz, hər kəslə öz dilində danışmağı bacarardı. Əməkdar incəsənət xadimi, Dövlət Film Fondunun direktoru Cəmil Quliyev tədbirlərin birində onun haqqında belə demişdi: "Elxan kinostudiyanın işığıdır". Həqiqətən də, Elxan müəllim kinostudiyanın işığı, əhvalı və sözün əsl mənasında, ağsaqqallarından idi. İndi onun haqqında xatirə yazısını yazarkən 20 ilə yaxın olan tanışlığımızın hər anı anbaan canlanır gözlərim önündə. Bütün həmkarlarına ürəyi yanan, hər kəsin köməyinə tələsən Elxan Qasımov. Dünyasını dəyişən aktyor və rejissorlar, kino xadimləri ilə bağlı yazılar hazırlayarkən çox zaman ona da müraciət edərdim. Bu günə kimi hələ bir dəfə də olsun, yox demədi. Hər kəsin haqqında ürək yanğısı ilə danışardı. Hətta bəzən özünü nasaz hiss etdiyi məqamlarda belə, mənə bildirmədən qışın soyuğunda təmirsiz kinostudiyadakı soyuq otağına gələr, yorulub-usanmadan xatirələrini bölüşərdi.

Bizim Elxan müəllimin özünəməxsus zarafatları ilə yanaşı, öyüd-nəsihətləri də var idi. Onunla hər görüş bir həyat dərsi idi. Yaradıcılıqla bərabər ictimai fəaliyyətlə də məşğul idi. Uzun illər idi kinostudiyada Həmkarlar İttifaqının sədri vəzifəsində çalışırdı. Azərbaycanın kino salnaməsinə adını yazdırmış insanların yubiley və xatirə gecələrinə qatılar, maraqlı çıxışı, unudulmaz xatirələri ilə diqqəti cəlb edərdi. Bir neçə il əvvəl görkəmli rejissorlardan birinin qəbirüstü abidəsinin və ətrafının abadlaşdırılmasında onun necə böyük sevgiylə, həvəslə iştirak etdiyinə şahid olmuşdum, amma Lalə pərdənin arxasından işarə edir ki, daha bəsdir". Bu da onun səmimiyyətindən, açıq sözlü olmasından irəli gəlirdi.

Bütün dostlarını diqqətdə saxlayardı. Xəstə olduqlarını xəbər tutan kimi zəng edər, yardıma yetişərdi. Uşaqla uşaq, böyüklə böyük idi bizim Elxan müəllim. Sonuncu dəfə bu ilin 28 aprelində Dövlət Film Fondunda kinorejissor Nicat Feyzullayevin xatirəsinə həsr olunan tədbirdə görüşdük. Ad günü 24 apreldə olduğu üçün çoxları orada Elxan müəllimi yenidən təbrik etdi...

**Qısa xatırlatma**

Elxan Məmməd oğlu Qasımov 24 aprel 1945-ci ildə Naxçıvanda anadan olub. Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) SSRİ Xalq artisti Adil İsgəndərovun kursunda aktyorluq (1962–1966), Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunda rejissorluq (1973–1978) ixtisası üzrə ali təhsil alıb. Tələbə ikən çəkildiyi "Əhməd haradadır?" (1963) filmindəki rolu tamaşaçı rəğbəti qazanıb. 1969-cu ildən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında çalışıb. Müxtəlif filmlərdə yaddaqalan rollar oynayıb, rejissor kimi "Qocalar, qocalar...", "Köhnə bərə", "Biz qayıdacağıq" filmlərinə quruluş verib. Həmçinin sənədli filmlərin, "Mozalan" kinosüjetlərinin müəllifidir. Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə 2000-ci ildə "Əməkdar artist" adına layiq görülüb.

Bircə oğlu Samiri avtomobil qəzasında itirsə də, oğul dağı qarşısında həmişə başını dik tutdu, heç vaxt özünü sındırmadı. Bu nisgili ürəyində daşıdı. Kinoya, sənətə sevgisi də o qədər böyük idi ki, həmin ağır itkidən sonra dediyi bir fikri heç vaxt unutmuram: "Allah mənə verən ömrü nə zaman alacaq bilmirəm. Gedəcəyim yer də məlum. Mən Samirin yanında dəfn olunacağam. Ona görə də rəhbərliyə dedim ki, bir əməkdaş olaraq mənim də haqqımı bu qəbirüstü abidəyə sərf edin". Bəzən vaxtilə kino sənətimizdə başa vermiş, çoxlarının xəbərsiz olduğu, amma əslində, nəticə etibarilə çox ibrətamiz olan hadisələrdən də danışardı. Sözünü isə belə bitirərdi: "Bunları bilirsən də, sənə niyə danışıram...". O vaxtlar çalışırdım bu sözün fərqinə varmayım. Bu gün vida mərasimində isə dönə-dönə dərinliyinə vardım...

### Bütün dostlarını diqqətdə saxlayardı...

Bəzən zarafatları da var idi. 2013-cü ildə Nizami Kino Mərkəzində görkəmli kinoaktyor, rejissor, Xalq artisti Şahmar Ələkbərovun 70 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilirdi. Çıxışçılar çox olduğundan gecə də uzanır və iştirakçıların səbri tükənirdi. Elxan müəllimsə həmişə olduğu kimi, yenə maraqlı, yaddaqalan xatirələrini dilə gətirirdi. Ərkyana şəkildə pərdənin arxasından çıxışını yığcam etməsi üçün sakitcə işarə etdim. Elə o andaca bir başa salona səsləndi: "Vallah, mən Şahmardan səhərə kimi danışardım,




Bu məqamda Elxan Qasımovun 75 illik yubileyi münasibətilə qəzetimizdə dərc olunan yazımda sənət dostlarının onun haqqında dediklərini xatırlayıram.

Əməkdar incəsənət xadimi, kino tədqiqatçısı Aydın Kazımzadə demişdi: "Dövlət Film Fondunda tez-tez kino xadimlərinə həsr olunmuş xatirə gecələrində iştirak edirik. Onu da xüsusi qeyd etmək istəyirəm ki, bu xatirə gecələrində yubileyi, anım gecəsi keçirilən kino sənətkarları ilə birgə çalışan bir çox insanlar gəlməsələr belə, Elxan mütləq o tədbirdə iştirak edir, xatirələrini bölüşür. Bu onun sənət dostlarına olan vəfasının, onların xatirələrini əziz tutmasının göstəricisidir".

70 illik yubileyində (2015) qəzetimizin ustad yazarı mərhum Tahir Abbaslı onunla müsahibə etmişdi. Bu müsahibədə o, qəlbindəki nisgilini də dilə gətirmişdi: "Bu, mənim yeganə oğul övladımın qəza faciəsi – bir yük maşını altına düşüb tələf olması ilə ilgilidir. O vaxtdan bu vaxta ağrı-acısını çoxdan-çox çəkdiyim, Tanrının heç bir valideynə göstərməməsini dilədiyim bu itki barədə az danışmağa, söhbətə tutulmamağa çalışıram. Çıxılmaz qalıb danışanda isə bircə cümlə ilə kifayətlənirəm: 52 il əvvəl bir yük maşını (məni göylərə qaldırdı, 10 il öncə digəri hüznlərə gömdü..." demişdi.

Sevə-sevə getdiyi son tədbir isə mayın ilk həftəsində – xəstəxanaya düşməzdən bir neçə gün əvvəl Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Əhməd haradadır?" filminin 60 illik yubileyi ilə əlaqədar onunla keçirilən görüş idi. Bu dəfə həmişəkindən fərqli olaraq sənət dostları onun haqqında danışmış, etibarlı yoldaş və qayğıkeş insan kimi məziyyətlərini vurğulamışdılar.

### "Yaşa dolduqca o biri dünyanın varlığına inanıram..."

29 may 2023-cü il. Ömür vəfa etmədi və Elxan Qasımov onu sevən minlərlə insana əlvida dedi. Məncə, bu dünyadan köç edən hər insan haqqında ürəkdən "Allah rəhmət eləsin" kəlməsi deyilmir. Bu gün kinostudiyanın həyətində gəncindən yaşlısına qədər hər kəs bu ifadəni içdən, ürək yanğısı ilə dilə gətirirdi. Bu bəlkə də onun vaxtilə səsləndirdiyi bir fikrə – "Mənim ixtiyarım yoxdur ki, xalqın cavan, saf Şofer Əhmədə olan məhəbbətini korlayam" ifadəsinə 60 illik sənət ömründə sadiqliyi ilə bağlıdır.

Və bir də... "Yaşa dolduqca o biri dünyanın varlığına inanıram. Düşünürəm ki, bir insan yox ola bilməz. Heç nə yox olmur. Buna görə də həyatda, demək olar ki, heç bir qorxum yoxdur. Sadəcə, bir şeydən narahatam: insanların gözündən düşmək istəmərəm. Ömrümün sonuna kimi çalışacağam ki, heç kəsin qəlbini sındırmayım...", – deyən bizim Elxan müəllim! Samirinizə qovuşdunuz, rahat uyuyun. Əziz xatirəniz qəlbimizdə əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

**L.Azəri**

---

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (37)

### 1983-cü il 14 aprel

Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Moskvada, İttifaqlar Evində görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazinin 70 illiyinə həsr olunmuş gecədə iştirak edib. SSRİ Nazirlər Sovetində Heydər Əliyevin kurasiyasına 10-dan çox nazirlik, o cümlədən SSRİ Mədəniyyət Nazirliyi, Maarif Nazirliyi, Dövlət Teleradio Verilişləri Komitəsi, Dövlət Kinematoqrafiya Komitəsi və digər qurumlar daxil idi. O, Azərbaycanın mədəniyyət və incəsənətinə də diqqətini əsirgəmirdi.

### 1983-cü il 17 iyun

Heydər Əliyev SSRİ-nin təsərrüfat və sosial-mədəni quruculuq sahəsində ən ali fərqlənmə dərəcəsi olan ali Sosialist Əməyi Qəhrəmanı adına ("Lenin" ordeni və "Oraq və çəkic" ordeni ilə təltif olunmaqla) ikinci dəfə layiq görülüb. Bu adla iki dəfə təltif olunanların vətənində sağlığında büstü qoyulurdu. Heydər Əliyevin büstü Naxçıvanda qoyuldu.

### 1983-cü il 5 sentyabr

Bakıda ilk dəfə Şərq xalça sənətinə dair Beynəlxalq Simpozium açılıb. Heydər Əliyev mötəbər tədbirdə iştirak etmək üçün Moskvadan Bakıya gəlib. O, hələ Azərbaycanın rəhbəri olduğu vaxt (1982) bu simpoziuma hazırlıq başlanmışdı. Heydər Əliyev respublikanın rəhbər şəxsləri və müxtəlif ölkələrdən gələn qonaqlarla birlikdə simpoziumun çərçivəsində Azərbaycan Dövlət Rəsm Qalereyasında təşkil olunmuş Azərbaycan xalçaları sərgisini ziyarət edib. Simpoziumun qonaqları arasında UNESCO-nun mədəniyyət sektorunun nümayəndəsi Pyer Kalfon, "Xalı" jurnalının (Böyük Britaniya) baş redaktoru Robert Pinner, "Fransa-SSRİ" Cəmiyyətinin katibi, Parisdəki J.Pompidu adına Mərkəzin əməkdaşı Elen Lyaroş, sənətşünaslar Ürfan Nəsrəddinoğlu (Türkiyə), Robert Çensiner (Böyük Britaniya), Lyudmila Kibalova (Çexoslovakiya) və başqaları vardı. Azərbaycan xalçaları – Bakı, Qarabağ, Şirvan, Quba, Gəncə, Qazax ustalarının yaratdıqları nümunələr qonaqlarda böyük maraq doğurub. Qonaqlar İçərişəhərdə xalça bayramına tamaşa edib, Azərbaycan SSR Elmlər Akademiyası Arxeologiya Mərkəzinin yeni binasında və Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyində xovsuz və süjetli-tematik xalça sərgilərinin ekspozisiyaları ilə, "Azərxalça" Birliyinin "İncəsənət" xalçaçılıq fabrikinin usta qadınlarının işi ilə də tanış olublar.

### 1983-cü il 24 sentyabr

Heydər Əliyev Moskvadan Bakıya növbəti gəlişi zamanı Azərbaycan Dövlət Akademik Dram Teatrında böyük şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyi münasibətilə səhnəyə qoyulmuş "İblis" tamaşasına baxıb. Tamaşadan sonra yaradıcı heyətlə görüşən Heydər Əliyev səhnə əsərini yüksək qiymətləndirib. Tamaşa Heydər Əliyevin rəhbərliyi ilə 1981-ci ildə qəbul edilən Hüseyn Cavidin 100 illiyinə həsr olunmuş tədbirlər planı əsasında hazırlanmışdı. 1984-cü ildə "İblis" tamaşası Azərbaycan SSR Dövlət mükafatına layiq görüldü. Mükafat quruluşçu rejissor Mehdi Məmmədov başda olmaqla səkkiz nəfərə (o cümlədən aktyorlar Məmmədrza Şeyxzamanov, Hamlet Xanızadə, Vəfa Fətullayeva, Səfurə İbrahimova, Ramiz Məlik) verilmişdi.

### 1983-cü il 1 oktyabr

Heydər Əliyev "Beynəlxalq musiqi günü" münasibətilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrin konsertində olub.

### 1983-cü il 15 oktyabr

Heydər Əliyev Moskvada, Kremlin Qurultaylar Sarayının səhnəsində dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun 60 illiyi münasibətilə nümayiş olunan "Min bir gecə" baletinin tamaşasına baxıb.

### 1984-cü il 22 fevral

Bakıda dahi bəstəkar Fikrət Əmirovla vida mərasimi keçirilib. Heydər Əliyev mərasimdə iştirak edib.

### 1984-cü il 18 may

Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Moskvada kino işçilərinin Ümumittifaq yığıncağında çıxış edib, kinematoqrafçıların qarşısında duran vəzifələrdən, kinonun maddi-texniki bazasının daha da möhkəmləndirilməsinin vacibliyindən və digər məsələlərdən söz açıb.

*"...Təcrübə öyrədir ki, incəsənət nəinki həyatla birgə addımlayanda, həm də onu qabaqlayanda, sənətkar cəsarətlə sabahkı günə baxanda, bugünkü prizmadan gələcəyi, perspektivi parlaq, bədii cəhətdən inandırıcı göstərməyi bacaranda öz yüksək vəzifəsini yerinə yetirmiş olur...*

*Kinematoqrafın təcrübəsi göstərir ki, film tamaşaçılara hər şeydən əvvəl şəxsiyyətin bütövlüyü, xeyirxah əməlləri, öz qəhrəmanının mənəvi və intellektual cazibədarlığı ilə təsir göstərir, adamların qəlbində iz qoyur...*

*Kinoteatrda və ya televiziya ekranında kinematoqrafın səlahiyyətli nümayəndəsi hər şeydən əvvəl aktyordur. Filmdə əksini tapan fikir və hisslər cərəyanı tamaşaçıya məhz onun vasitəsilə ötürülür. Ekranda insanın təsvirində ssenaristin, rejissorun, operatorun, rəssamın bütün cəhdləri məhz aktyorun üzərində çarpazlaşır. Biz bunda çox maraqlıyıq ki, aktyorun şəxsiyyəti və professional ustalığı bədii obrazların dərinləşdirilməsinə, onların inandırıcılığının və ibrətamizliyinin gücləndirilməsinə kömək etmiş olsun..."*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

---

# Gənc xanəndənin böyük solo konserti

Mayın 29-da Heydər Əliyev Sarayında Azərbaycan Televiziyasının və Beynəlxalq Muğam Mərkəzinin solisti, bir çox müsabiqələrin mükafatçısı, gənc və istedadlı ifaçı Almaxanım Əhmədlinin solo konserti olub.



Bu, gənc ifaçının sayca dördüncü, Heydər Əliyev Sarayında isə ilk böyük solo konsertidir. Müğənnini tarzən Məsim İslamovun rəhbərliyi ilə "Bayatı-türk" instrumental ansamblı müşayiət edib. Konsertin aparıcısı Azər Süleymanlı tədbir boyu hər musiqi nömrəsinin mətninə uyğun şair Vüqar Əhmədin şeirlərini səsləndirib.

Anşlaqla keçən konsertdə muğam, xalq, aşıq və bəstəkar mahnıları, eləcə də türk və estrada nəğmələri ifaçı tərəfindən peşəkarlıqla ifa olunub və sürəkli alqışlarla qarşılanıb.

---

# "Abşeron palitrası"

## Əməkdar rəssam Rafael Muradovun 80 illik yubileyi qeyd olunub





Paytaxtın Xəzər rayonunun Buzovna qəsəbəsindəki Ruhulla Axundov adına Mədəniyyət evində Əməkdar rəssam Rafael Muradovun 80 illik yubileyinə həsr olunmuş "Abşeron palitrası" adlı tədbir keçirilib.

Mayın 27-də gerçəkləşən tədbirin qonaqları əvvəlcə rəssamın əsərlərindən ibarət sərgiyə baxıblar. Sənətkarın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Xalq rəssamları Arif Əziz, Aydın Rəcəbov, Əməkdar rəssamlar Məmmədhüseyn Hüseynov, Vüqar Əli, ilahiyyatçı alim Soltan Əlizadə, Yazıçılar Birliyi Xəzər bölməsinin sədri, şair-tədqiqatçı Arif Buzovnalı, rəssam Vüqar Muradov yubilyarın sənət dünyasından söz açıblar.

Diqqətə çatdırılıb ki, Rafael Muradov ömrünün 50 ildən çoxunu sənətə həsr edib, eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olaraq yeni nəsil rəssamların yetişməsinə öz töhfəsini verib. Öz dövrünün güzgüsü olmağa çalışan rəssamın "Tariximiz", "Etiraz", "Qara Yanvar", "Qaçqınlar", "İmperiyanın süqutu", "Qaçqın harayı", "Faciə" və "Uçurum" kimi əsərlərində reallıqdan fəlsəfi ümumiləşdirməyə qədər uzanan, tarixi faktlara söykənən elə həqiqətlər var ki, onlara inanmamaq çətindir. Həm rəng həllinin yaratdığı təzadlı ovqat, həm də istifadə etdiyi rəmzi detallar və obrazlar tamaşaçıya bəlalarımızın dərinliyini, köklərini duymağa, eləcə də bizə düşünüb-daşınmağa imkan yaradır. Bütün "abşeronçular" kimi Rafael Muradovun da seçdiyi təsvir motivləri zahiri sadəliyinə baxmayaraq fəlsəfi tutumludur. Hər tablosu təkcə zamanına görə yox, həm də məna və məzmun yükünə görə müasir və gələcək ünvanlıdır.

Çıxışlardan sonra yubilyara Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin fəxri fərmanı təqdim olunub. Mədəniyyət evinin musiqi kollektivləri konsert proqramı ilə çıxış edib.

**Lalə**

# Bəstəkarlar İttifaqı "Heydər Əliyev İli" çərçivəsində müsabiqə elan edib

## Azər Dadaşovun fortepiano əsərlərinin ən yaxşı ifası üzrə

Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) "Heydər Əliyev İli" çərçivəsində bəstəkar, Xalq artisti, professor Azər Dadaşovun fortepiano əsərlərinin ən yaxşı ifası üzrə VI müsabiqə elan edib.

İki mərhələdən ibarət müsabiqə 20-22 noyabr 2023-cü il tarixlərində Bakıda keçiriləcək. Müsabiqədə yaş məhdudiyyəti yoxdur. İştirak etmək istəyənlər noyabrın 10-dək sənədlərini Azərbaycan Bəstəkarlar İttifaqına (tel: (012) 598 08 86) təqdim etməlidir.

Təşkilat komitəsinin və münsiflər heyətinin sədri ABİ-nin sədri Xalq artisti, UNESCO-nun "Sülh artisti", AMEA-nın müxbir üzvü Firəngiz Əlizadədir.

Müsabiqənin birinci mərhələ üzrə proqramına A.Dadaşovun fortepiano silsilələrindən birinin ifası daxildir. İştirakçılar istəklərinə uyğun olaraq seçdiyi silsiləni bütöv, yaxud hissələrini ifa edə bilərlər.

Müsabiqənin ikinci mərhələ üzrə proqramına A.Dadaşovun Ümummilli lider Heydər Əliyevə həsr olunmuş fortepiano ilə kamera orkestri üçün "Poema"sı (iki piano üçün köçürmə) daxildir.

Münsiflər heyətinin qərarı ilə seçiləcək qaliblərə pul mükafatları, diplomlar, xüsusi mükafatlar təqdim olunacaq.

Birinci yer üçün 1000 manat və birinci dərəcəli diplom, ikinci yer üçün 750 manat və ikinci dərəcəli diplom, üçüncü yer üçün 500 manat və üçüncü dərəcəli diplom nəzərdə tutulur.

Dövlət, ictimai və özəl təşkilatlar müsabiqənin qalibləri üçün xüsusi mükafatlarını təsis edə bilərlər.

Müsabiqənin bütün iştirakçılarına xüsusi sertifikat və xatirə medalyonları veriləcək.

# "Ömrümün səhifələri" – tanınmış balaban ifaçısının yubiley konserti



Tanınmış balaban ifaçısı Coşqun Sadıqovun 50 illik yubileyi münasibətilə mayın 25-də Beynəlxalq Muğam Mərkəzində konsert keçirildi. "Ömrümün səhifələri" adlı konsertin proqramı etno-caz musiqisindən ibarət idi.

Cazı doğma muğam dilinə çevirib təqdim edən Azərbaycan cazının əfsanəsi Vaqif Mustafazadə yolunun davamçısı olan Coşqun Sadıqovu konsertdə Xalq artisti Mircavad Cəfərovun "Cəngi" estrada folklor ansamblı və Xalq artisti Cəmil Əmirovun rəhbərlik etdiyi caz qrupunun musiqiçiləri müşayiət edirdi.

Gecədə Cəmil Əmirov, Siyavuş Kərimi və Əlibaba Məmmədovun bəstələri ilə yanaşı, milli rəqs və aşıq havalarımız caz improvizələri ilə təqdim olundu. Konsert proqramı böyük maraqla qarşılandı.

Coşqun Sadıqov hələ uşaq yaşlarından nəfəsli alətlərə maraq göstərib. Milli Konservatoriyanın bakalavr və magistr pillələrində təhsil alıb. Ölkəmizdə təşkil edilən muğam və caz festivallarının iştirakçısı olan ifaçı həmçinin Türkiyə, ABŞ, Rusiya, Fransa, Avstriya, Norveç və digər ölkələrdə caz festivallarında çıxış edib. İfaçı 2014-cü ildə İsveçrədə Montre Caz Festivalında milli nəfəs alətləri üzrə ustad dərsi keçib. 15 ildir "Cəngi" estrada folklor ansamblında fəaliyyət göstərir.

# Demə ki, sənə yadam, sevgilim...

Yay günəşinin nazlı vaxtında, bar-bəhrəli günlərində (4 iyun 1926) doğulmuşdu özü səsi kimi gözəl, həyatı avazı kimi yanğılı xanəndə. Amma qışın qar-sazağında, özü də duyğuları belə donduran tənhalıq və laqeydliyin girdabında (4 yanvar 2000) köçdü bu vəfasız dünyadan. Köçdü ki, özündən sonra bir də o zəngulə, o avaz, o yanğı və o boyda ağrı ilə heç kimin "Kəsmə şikəstə"də yanıb-alışdığını, sönüb kül olduğunu görməsin...




Əməkdar artist, xəlqi sənətkar, səsi ilə minlərlə insanın qəlbində öz yerini həmişəlik alan "Kəsmə şikəstə"nin bənzərsiz ifaçısı Fatma Mehrəliyeva sənəti zamana yenilməyən sənətkardır. Bunu mayın 30-da Beynəlxalq Muğam Mərkəzində Fatma Mehrəliyevanın xatirə gecəsinə toplaşan hər nəsildən muğamsevərlər, musiqi ilə bütün duyğularına qol-qanad verənlər təsdiqlədilər.

Xatirə gecəsində sənətkarın ifaçılıq xüsusiyyətlərinə, xanəndə kimi fərqliliyinə nəzər salındı. Filologiya üzrə fəlsəfə doktoru, muğam irsinin tədqiqatçısı Gülhüseyn Kazımlı xanəndənin ömür və sənət yolunu xatirələrin işığında yenidən vərəqlədi. Bildirdi ki, F.Mehrəliyeva muğam, xalq mahnı və təsniflərinin, eləcə də bəstəkar mahnılarının mahir ifaçısı kimi şöhrət qazanıb. Onun oxuduğu muğamlar arasında "Kəsmə şikəstə"nin özünəməxsus yeri var. Musiqişünas-alim Ramiz Zöhrabov "Zərbi muğamlar" kitabında verdiyi "Kəsmə şikəstə"ni məhz Fatma xanımın ifasında nota köçürüb. "Qatar", "Segah-zabul" və digər muğamların, xalq və bəstəkar mahnılarının mahir ifaçısı olan xanəndə Azərbaycan musiqi mədəniyyətinə mühüm töhfələr verib.

Gözəlliyi və peşəkarlığı ilə diqqətləri cəlb edən ifaçı 1945-ci ildə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ekranlaşdırılan "Arşın mal alan" filmində oynadığı Telli rolu ilə də geniş tamaşaçı rəğbəti qazanıb.

Gülhüseyn Kazımlı sənətkar haqqında kövrək xatirələri, zamanın böyük sənətşünaslarının rəylərini, Fatma xanımın insan və ifaçı kimi xarakterik xüsusiyyətlərini də diqqətə çatdırdı. Qeyd etdi ki, hələ kiçik yaşlarından öz səsi ilə qohum-qonşunun, müəllimlərinin sevgisini qazanan Fatma Qubada oxuduğu orta məktəbdə nəğmə dərslərində xüsusi fəallıq göstərərmiş. Müəllimləri onun bu məharətini dəyərləndirərək balaca Fatmanı musiqi festivalında iştirak etmək üçün Bakıya göndərirlər. Festivalda "Qubanın ağ alması" xalq mahnısını ifa edən 11 yaşlı qızcığazın ifası Üzeyir Hacıbəylinin diqqətini cəlb edir.

Dahi bəstəkarla tanışlığı Fatmanın həyatında böyük rol oynayır. Üzeyir bəy ona əsl ata qayğısı göstərir. Fatmanı məktəbdə oxudur, ona musiqi təhsili almaq üçün şərait yaradır. Beləcə, Üzeyir bəyin xeyir-duası Mehrəliyeva üçün uzun həyat yolunda yaşıl işığa çevrilir.

Fatma Mehrəliyeva xanəndəlik fəaliyyətinə 1940-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində "Sazçı qızlar" ansamblında başlayır. Geniş konsert salonlarında bir-birinin ardınca uğurlu çıxışlar edən bu istedadlı gəncin sorağı bütün respublikaya yayılır. 1941-1945-ci illər müharibəsi onun da həyatına təsirsiz ötüşmür. O, tez-tez cəbhədə hərbçilərin qarşısında çıxış edir. Fatma xanımın cəbhə repertuarında Ü.Hacıbəylinin vətənpərvərlik nəğmələri geniş yer tutur. Bəstəkarın Səməd Vurğunun sözlərinə bəstələdiyi "Şəfqət bacısı" mahnısının ilk ifaçısı da o olub. Lakin həmin ifanın lent yazıları qalmayıb.

Gecədə ifaçının yaddaşlara köçən muğam, təsnif və mahnılarından seçmə nümunələr də səsləndi. Xatirələr toplusuna xüsusi rəng qatan məqam xanəndənin ömür-gün yoldaşı olmuş Teyyub Dəmirovun ifasında "Kəsmə şikəstə"nin nadir səs yazısı oldu.

Qonaqları kövrək notlara kökləyən gecə sənətkara ithaf konsert proqramı ilə davam etdi.

Fərqli üslub və ladlarda mahnılar ifa olunduqca biz də xəyal qanadlarında zamanlar arasında səyahətə çıxdıq. Axı, hər birimizin ömür yolunda, gənclik ilə qocalıq arasındakı amansız keçidində musiqi avazı var. Axı, hər birimiz nə vaxtsa "Əzizinəm, a balam..." xitabında, "Qara gözlərinə qurban olduğum" fərqləndirməsində, "Uzaqdan, a də balam, boyunu gördüm" həsrətində, "Baxım xumar gözlərinə" yanğısında, "Demə ki, sənə yadam, sevgilim" izharında oluruq. Sonra başımızdan sevdası getməyən "İlk məhəbbət"in həsrətinə qoşulub gah "Segah"da qəhərlənir, gah "Neyçün səni bəs unuda bilmirəm!" sualları ilə baş-başa qalırıq.

Xəyalən illər öncəyə qayıdanları Fatma Mehrəliyevadan bizə yadigar qalan və qorunan nəğmələrin – "Qubanın ağ alması"nın, "Azərbaycan maralı"nın, "Ahu kimi"nin, "Qaragilə"nin gənc və istedadlı yeni ifaçıları (Əməkdar artistlər Sevinc Sarıyeva, İlkin Əhmədov, xanəndələr Tofiq Həmidov, Nisbət Sədrayeva, Sədəf Budaqova, Mirəli Mirizadə, Murad Laçın, Ülkər Abdullayeva, Günay İmamverdiyeva) günümüzə "qaytarıb", fərqli ovqata köklədilər.

**Həmidə Nizamiqızı**

# Azərbaycanlı rəssam İndoneziyada beynəlxalq sərgidə təmsil olunacaq

7-30 iyun tarixlərində İndoneziyanın Nusantara şəhərində V Beynəlxalq İncəsənət və Memarlıq Sərgisi keçiriləcək.




Bu il səyahət mövzusuna həsr edilən sərgidə Türkiyə, Braziliya, Almaniya, Çexiya, Kuba, Belçika, Argentina, Hindistan, Rusiya, İngiltərə, Fransa – ümumilikdə 37 ölkədən 225 rəssamın əsərləri nümayiş olunacaq.

Ölkəmiz tanınmış rəssam Soltan Soltanlının iki əsəri ilə sərgidə təmsil olunacaq.

Soltan Soltanlı əsərləri ilə insan həyatının ekzistensial suallarını və sosial davranışı araşdırır. O, sevgi, əmək, itki və insan münasibətləri kimi mövzulara istinad edir və rəsmlərinə özəl detallarla zəngin olan həyat anlayışını açıqlayan, başlıca niyyətini anladan adlar verir.

Azərbaycanda və İranda fərdi sərgiləri keçirilən rəssamın əsərləri Türkiyə, Misir, Polşa, İspaniya, İtaliya, Kanada, Malayziya, Serbiya, Xorvatiya, Portuqaliya, Yaponiya, Koreya, Çin, Bolqarıstan, Yunanıstan və digər ölkələrdə nümayiş olunub, kataloqlara salınıb.

# Tanınmış cazmen yubileyini səhnədə qeyd edib



Beynəlxalq Muğam Mərkəzində mayın 26-da gitaraçı, cazmen, Türkiyədə fəaliyyət göstərən həmvətənimiz Ələsgər Abbasovun 65 illiyi münasibətilə yaradıcılıq gecəsi keçirildi.

İfaçının həyat və sənət yolu haqqında məlumat verildi. Diqqətə çatdırıldı ki, Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) məzunu olan Ələsgər Abbasov uzun müddət görkəmli cazmen, Xalq artisti Rafiq Babayevin yaratdığı bir çox heyətlərdə çalışıb.

Sonra səhnə musiqiçilərin ixtiyarına verildi. Yubilyarın uzun illər birgə çalışdığı Xalq artistləri Salman Qəmbərov, Cəmil Əmirov, Əməkdar artist Tofiq Cabbarov, Ahmet Özkulalı (zərb alətləri), müğənni Ebru Çətin (hər ikisi Türkiyə), Nicat Paşazadə (bas gitara) Ələsgər Abbasovla eyni səhnəni bölərək təbriklərini musiqinin dili ilə çatdırdılar. Proqramda bir-birindən fərqli üslub və janrda caz improvizasiyaları təqdim edildi.

Qeyd edək ki, Ələsgər Abbasov konservatoriyanın Simli alətlər fakültəsində təhsil alıb. Vaxtilə "Abşeron" və Vaqif Mustafazadənin "Muğam" qrupunda çalışan musiqiçi daha sonra Azərbaycan Dövlət Televiziya və Radiosu Estrada orkestrinin və "Cəngi" qrupunun üzvü olub. Həmçinin Xalq artisti Cəmil Əmirovun rəhbərlik etdiyi ansamblda çalışıb. Bir çox yerli və beynəlxalq caz festivallarının iştirakçısıdır.

**Lalə**

## Xatirə təqvimi — 1–5 iyun

### Azərbaycan

**1 iyun 1920** – Xalq artisti Raxil Solomonovna Ginzburq (1920 – 6.12.1995) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1943-cü ildən) olub.

**1 iyun 1936** – Xalq artisti, dirijor Nəriman Abbasqulu oğlu Əzimov (1936 – 19.11.2016) Gəncədə doğulub. Azərbaycan Televiziyası və Radiosunun Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**1 iyun 1939** – Ali Sovetin Rəyasət Heyəti Azərbaycan Dövlət Ümumi Kitabxanasına (indiki Milli Kitabxana) M.F.Axundzadənin adının verilməsi barədə qərar qəbul edib. Elmlər Akademiyasının binasında yerləşən kitabxana 1960-cı ildə indiki binasına (arxitektor Mikayıl Hüseynov) köçüb. 1962-ci ildə binada M.F.Axundzadənin büstü (heykəltəraş İbrahim Zeynalov) qoyulub.

**1 iyun 1940** – Əməkdar rəssam Ənvər Əsgər oğlu Əsgərov (1940-2014) Qəbələ rayonunda anadan olub. Abşeronun koloriti, sənaye mənzərələri ilə bağlı tabloların, natürmortların müəllifidir.

**1 iyun 1943** – Əməkdar mədəniyyət işçisi Arif İzzət oğlu Həbibi (1943 – 21.1.2021) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında rejissor assistenti, dublyaj rejissoru, Dublyaj şöbəsinin müdiri işləyib.

**1 iyun 1944** – Əməkdar artist Mübariz Əlixan oğlu Paşayev (1944 – 31.8.2006) Zəngilan rayonunda doğulub. İrəvan, Gənc Tamaşaçılar teatrlarının aktyoru olub, filmlərdə ("Qərib cinlər diyarında", "Dantenin yubileyi" və s.) çəkilib.

**1 iyun 1950** – Əməkdar artist Tanilə Aysayevna Əhmərova (1950 – 4.8.2015) Bakıda anadan olub. Filmlərdə yaddaqalan obrazlar yaradıb: "Sevinc buxtası" (Leyla), "Qayınana" (Sevda) və s.

**1 iyun 1953** – Əməkdar artist Ömür Məlik oğlu Nağıyev (1953 – 31.12.2013) anadan olub. 30-dan çox filmdə çəkilib. Bakı Bələdiyyə Teatrında, Rus Dram Teatrında çalışıb.

**1 iyun 1972** – Bakıda Azərbaycan yazıçılarının V qurultayı işə başlayıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev qurultayda çıxış edib.

**1 iyun 2010** – Prezident İlham Əliyev böyük şair Mirzə Ələkbər Sabirin 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**1 iyun 2015** – Prezident İlham Əliyev görkəmli memar, Sosialist Əməyi Qəhrəmanı, akademik Mikayıl Hüseynovun 110 illik yubileyi haqqında sərəncam imzalayıb.

**2 iyun 1979** – Tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Hüseyn Əli oğlu Seyidzadə (15.10.1910 – 1979) vəfat edib. "O olmasın, bu olsun", "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərə quruluş verib.

**2 iyun 2013** – Milli təsviri sənətimizin görkəmli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatları laureatı Toğrul Fərman oğlu Nərimanbəyov (7.8.1930 – 2013) Parisdə vəfat edib. Passi qəbiristanlığında dəfn olunub.

**3 iyun 2006** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Mikayıl Mirzə (Mikayıl Şahvələd oğlu Mirzəyev; 1.1.1947 – 2006) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**3 iyun 2006** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil Salman oğlu Əhmədov (10.9.1931 – 2006) vəfat edib. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

**4 iyun 1926** – Əməkdar artist, xanəndə Fatma Yusif qızı Mehrəliyeva (1926 – 4.1.2000) Qubada anadan olub. Muğam, xalq və bəstəkar mahnılarının bənzərsiz ifaçısı kimi tanınıb. "Arşın mal alan" filmində (1945) Telli rolunu oynayıb.

**4 iyun 1929** – Əməkdar artist, kamança ifaçısı Elman Kərim oğlu Bədəlov (1929 – 25.6.1991) Ağdamın Malıbəyli kəndində doğulub. Azərbaycan Televiziyası və Radiosu Xalq çalğı alətləri orkestrində fəaliyyət göstərib.

**4 iyun 1939** – Əməkdar artist Vaqif Nəcəf oğlu Rəsulov (1939-2014) Bakıda doğulub. Sumqayıt Dövlət Dram Teatrı yaranandan (1968) bu teatrın aktyoru olub.

**4 iyun 1944** – Əməkdar mədəniyyət işçisi, kinooperator Elman Əliverdi oğlu Əliyev (1944-2016) Bakıda doğulub. 30-dan artıq sənədli filmin operatoru, bədii filmlərin rəssam-fotoqrafı olub.

**4 iyun 2012** – Prezident İlham Əliyev milli mətbuatın banisi, publisist, təbiətşünas alim Həsən bəy Zərdabinin 170 illik yubileyi və Xalq şairi, ədəbiyyatşünas Xəlil Rza Ulutürkün 80 illik yubileyi haqqında sərəncamlar imzalayıb.

**5 iyun 1908** – Məşhur şair Mikayıl Müşfiq (Mikayıl Əbdülqadir oğlu İsmayılzadə; 1908 – 6.1.1938) anadan olub. Yeniyetmə vaxtlarından şeir yazıb, 18-20 yaşlarında populyarlıq qazanıb. Qısa ömründə 10 şeir və poemalar toplusu nəşr olunub. Repressiya qurbanıdır.

**5 iyun 1939** – Xalq şairi, dramaturq Vaqif Səmədoğlu (Vaqif Səməd oğlu Vəkilov; 1939 – 28.1.2015) anadan olub. Lirik-fəlsəfi şeirlərin, "Bəxt üzüyü", "Yayda qartopu oyunu", "Generalın son əmri", "Mamoy kişinin yuxuları" və s. pyeslərin müəllifidir. Milli Məclisin deputatı (2000-2010) olub.

**5 iyun 1941** – Görkəmli aktyor, Əməkdar artist Hamlet Bəbir oğlu Xanızadə (1941 – 3.2.1990) Bakının Şağan kəndində doğulub. "Babək", "Arxadan vurulan zərbə", "Qızıl uçurum", "Qətl günü" və s. filmlərdə, Akademik Dram Teatrında, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

### Dünya

**1 iyun 1804** – Rus bəstəkarı Mixail İvanoviç Qlinka (1804-1857) anadan olub. "İvan Susanin", "Ruslan və Lyudmila" operalarının müəllifidir.

**1 iyun 1850** – Türk yazıçısı Şəmsəddin Sami (1850-1904) anadan olub. İlk türk romanı sayılan "Taaşşuk-ı Talat və Fitnat" əsərinin müəllifi, türk dili lüğətinin tərtibçisidir.

**1 iyun 1926** – Amerika aktrisası, müğənni Merilin Monro (Marilyn Monroe – əsl adı Norma Jean Mortenson; 1926-1962) anadan olub.

**1 iyun 1929** – Hind aktrisası Nərgiz (əsl adı Fatimə Rəşid; 1929-1981) anadan olub. "Avara", "Cənab 420" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**2 iyun 1840** – İngilis yazıçısı, şair Tomas Hardi (Thomas Hardy; 1840-1928) anadan olub.

**2 iyun 1988** – Hind aktyoru və rejissoru Rac Kapur (Raj Kapoor; 14.12.1924 – 1988) vəfat edib. Filmləri: "Avara", "Cənab 420" (aktyor), "Sanqam", "Bobbi", "Abdulla" (rejissor) və s.

**3 iyun 1875** – Fransız bəstəkarı Jorj Bize (Georges Bizet - Alexandre-Cesar-Leopold Bizet; 25.10.1838 – 1875) vəfat edib. Operaları: "Karmen", "Camile", "Mərcan axtaranlar" və s.

**3 iyun 1924** – Yəhudi əsilli çex-alman yazıçısı, filosof Frans Kafka (Franz Kafka; 3.7.1883 – 1924) vəfat edib. Əsərləri: "Bir xanımın xülasəsi", "İtaətkarla söhbət", "Çevrilmə", "Qəsr", "Kənd həkimi" və s.

**3 iyun 1963** – Türk şairi, yazıçı-dramaturq Nazim Hikmət (15.1.1902 – 1963) Moskvada vəfat edib. Siyasi baxışlarına görə 1951-ci ildə SSRİ-yə mühacirət etmişdi. Əsərləri əsasında "Yaşamaq gözəldir, qardaşım", "Bir məhəllədən iki nəfər" ("Azərbaycanfilm"), "Məhəbbətim mənim, kədərim mənim" (SSRİ-Türkiyə) filmləri çəkilib.

**4 iyun 1882** – Rus teatr rejissoru Fyodor Komissarjevski (1882-1954) anadan olub.

**5 iyun 1898** – İspan şairi və dramaturqu, musiqiçi və rəssam Federiko Qarsia Lorka (Federico Garcia Lorca; 1898-1936) anadan olub. İspaniyada vətəndaş müharibəsində həlak olub.

**5 iyun 1931** – Fransız kinorejissoru, "Yeni dalğa"nın nümayəndəsi Jak Demi (Jacques Demy; 1931-1990) anadan olub.

**Hazırladı: V.Orxan**

# Diplomatların təsviri sənəti

## Polad Bülbüloğlunun təşəbbüsü ilə Moskvada sərgi açılıb

Moskvada diplomatik korpusun duayeni (bir ölkədə ən uzun müddət akkreditasiyası olan diplomat – red.), Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun təşəbbüsü, Rusiya Xarici İşlər Nazirliyi Dövlət protokolu departamentinin və Moskva Müasir İncəsənət Muzeyinin təşkilatçılığı ilə "Dünyanın rəngləri" adlı yaradıcılıq sərgisi açılıb.

Ekspozisiyada Moskvada fəaliyyət göstərən 16 səfirliyin əməkdaşlarının 150 əl işi nümayiş etdirilir. Diplomatlar rəngkarlıq, qrafika, art-obyekt və digər janrlarda müxtəlif mövzulara həsr olunmuş əl işlərini təqdim ediblər.



Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko sərginin açılış mərasimində çıxış edərək bildirib ki, bir-biri ilə sıx bağlı olan diplomatiya və incəsənət müxtəlif ölkələrin nümayəndələri arasında qarşılıqlı anlaşma və etimadın yaranmasında mühüm rol oynayır: "Bəzən bədii əsərlər sözlə deyilməsi mümkün olmayan həqiqətləri çatdırır. Həm qələm, həm də fırça ustası olan diplomatlar isə bunu daha inandırıcı edə bilirlər".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qeyd edib ki, müasir mürəkkəb dünyada diplomatların həm də yaradıcılıqla məşğul olması sevindirici haldır. O, sərginin təşkilində yardıma görə Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Vasili Sereteliyə təşəkkür edib: "Düşünürəm ki, bu sərgi yaradıcılığı nümayiş olunan hər bir diplomat üçün Rusiya paytaxtındakı fəaliyyəti dövründən xoş xatirə kimi qalacaq. Çünki yaradıcılıq həvəsi heç zaman sönmür".

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Vasili Sereteli incəsənətin ölkələr və xalqlar arasında birləşdirici rolundan danışıblar.

# Bakıda "Türk mətbəxi həftəsi"

## Diplomatların xanımları üçün...

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hər il may ayında dünyada "Türk mətbəxi həftəsi" keçirilir.

Bu il 21-27 may tarixlərində gerçəkləşən "Türk mətbəxi həftəsi" çərçivəsində Türkiyənin Azərbaycandakı Səfirliyində də tədbir təşkil olunub.

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcının xanımı Leyla Bağcının ev sahibliyi ilə təşkil olunan tədbirə Azərbaycanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin rəhbərlərinin xanımları qatılıblar. Qonaqlara Türkiyənin Hatay bölgəsinin ləziz mətbəx nümunələri təqdim olunub.



Leyla Bağcı Hatayın tarixi, mədəniyyəti və ənənəvi yemək mədəniyyəti haqqında məlumat verib. Bu il fevralın 6-da Türkiyədə baş verən zəlzələ fəlakətində Hatay bölgəsinin də böyük dağıntılara məruz qaldığını deyən L.Bağcı ölkənin bu çətin günləri ən qısa zamanda geridə qoyacağına əminliyini ifadə edib.

# "Zəfər müjdəsi"

## Rəssam və qalereyaçı Eldəniz Babayevin sərgisi




İstedadlı rəssam, "Bakı" Rəsm Qalereyasının direktoru Eldəniz Babayev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105, Türkiyə Cümhuriyyətinin 100 və Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Zəfər müjdəsi" adlı fərdi sərgisini təqdim edib.

26-28 may tarixlərində Muzey Mərkəzində keçirilən sərginin açılışında Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı iki ölkənin tarixi qardaşlıq münasibətlərinin, eləcə də Qarabağ Zəferinin tərənnümü olan sərgi münasibətilə müəllifi təbrik edib. O, belə bir sərginin Türkiyədə də keçirilməsini tövsiyə edib.

"Yeni Gallery" Bakı İncəsənət Mərkəzinin direktoru Rafael Gülməmmədli sərginin rəssamın yaradıcılığının müxtəlif dövrlərini əks etdiyini bildirib. Qeyd edib ki, ekspozisiyada Eldəniz Babayevin əsasən portret, natürmort, məişət və tarixi janrlarda yetmişə qədər boyakarlıq və qrafika əsəri nümayiş olunur.

Burada Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbə, Heydər Əliyevin "Bir millət, iki dövlət" tarixi kəlamı, Azərbaycan-Türkiyə dostluğu, həmçinin xalqımızın məişəti, adət-ənənələri, mədəniyyəti təqdim olunan əsərlərin mövzusudur.

Azərbaycan Rəssamlar İttifaqının katibi Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamı Fuad Salayev də sərgi haqqında fikirlərini bölüşüblər.




Tədbirdə sərgidə rəssamın həyat və yaradıcılığını, ictimai və maarifçilik fəaliyyətini əks etdirən "Eldəniz Babayev. Zəfər müjdəsi" (müəllif Mirzə Talıbov) adlı kitab-kataloqu (Azərbaycan, türk, ingilis dillərində) da təqdim olunub. Kitabdakı mətnlərin ingilis dilinə tərcüməçisi, tanınmış jurnalist İen Piert nəşr haqqında danışıb, sərginin əhəmiyyətindən söz açıb.

Eldəniz Babayev sərgidə iştirak edən hər kəsə öz təşəkkürünü bildirib.

Sonda bədii hissə təqdim olunub və sərgiyə baxış keçirilib.

Qeyd edək ki, sərgi Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Azərbaycanda Atatürk Mərkəzi, Muzey Mərkəzi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Rəssamlar İttifaqı, "Bakı" Rəsm Qalereyası, "Yeni Gallery" Bakı İncəsənət Mərkəzi və Xətai Sənət Mərkəzinin dəstəyi ilə təşkil olunub.




## Olaylar, faktlar (1–4 iyun)

**1 iyun** Beynəlxalq Uşaqları Müdafiə Günüdür. 1949-cu ildə Beynəlxalq Demokratik Qadınlar Federasiyasının Parisdə keçirilən konqresində təsis olunub. 1956-cı ildən uşaqlarla bağlı daha bir gün, BMT tərəfindən təsis olunan 20 noyabr – Dünya Uşaq Günü də qeyd olunur.

### 145 il əvvəl...

**4 iyun 1878-ci ildə** Britaniya və Osmanlı imperiyası arasında Kipr konvensiyası imzalanıb. Sazişə əsasən, Osmanlı Kipr adasını Britaniyanın idarəçiliyinə verərək əvəzində Rusiya ilə Balkan müharibəsində (1877-1878) ondan yardım almalı idi. Lakin Osmanlı müharibədə məğlub oldu və Balkanların böyük hissəsinə də, Kiprə də nəzarəti itirdi.

### 105 il əvvəl...



**4 iyun 1918-ci ildə** Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı arasında "Sülh və dostluq haqqında" müqavilə imzalanıb. Müqavilәni Azərbaycan tərəfdən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.Hacınski, Osmanlı tərəfdən ədliyyə naziri Xəlil bəy və Qafqaz cəbhəsinin komandanı Vahib paşa imzalamışdı. Bu müqavilə ilə Xalq Cümhuriyyəti birinci olaraq Osmanlı tərəfindən tanındı.

### 103 il əvvəl...

**3 iyun 1920-ci ildə** bolşevik işğalına müqavimət göstərən Nuru paşanın başçılığı altında Xalq Cümhuriyyətinin ordu hissələri Şuşa şəhərini ələ keçiriblər. Onların üzərinə XI rus ordusunun əlavə birləşmələri göndərilib. Sayca qat-qat çox olan rus qoşunları Levandovskinin komandanlığı altında iyunun 15-də Şuşanı yenidən işğal ediblər. Milli ordunun azsaylı hissələri Cəbrayıl qəzasına geri çəkiliblər. İyunun sonunda bu bölgə bolşeviklərin nəzarətinə keçdi.

### 85 il əvvəl...

**2 iyun 1938-ci ildə** Azərbaycanda ilk mülki aviasiya dəstəsi təşkil olunub. Bakıda ilk aviasiya məktəbi 1915-ci ildə yaradılmış, 1923-cü ildə Bakı-Tbilisi marşrutu ilə ilk mülki aviasiya xətti açılmış, 1933-cü ildə Binədə ilk hava limanı istifadəyə verilmişdi. 1938-ci ildə ilk mülki aviasiya dəstəsi uçuşlara başladı. Prezident İlham Əliyevin 2006-cı il 18 may tarixli sərəncamı ilə 2 iyun Azərbaycanda mülki aviasiya işçilərinin peşə bayramı günü elan olunub.

### 34 il əvvəl...



**3 iyun 1989-cu ildə** Çinin paytaxtı Pekindəki Tyananmen meydanında aprel ayından davam edən fasiləsiz tələbə mitinqləri hərbi güclə yatırdılıb. Milyona yaxın tələbinin etiraz aksiyasını dağıtmaq üçün meydana tanklar yeridilib. Qeyri-rəsmi məlumatlara görə, meydanda mindən çox adam həlak olmuşdu.

### 31 il əvvəl...

**3 iyun 1992-ci ildə** Azərbaycan Respublikası BMT-nin təhsil, elm, mədəniyyət təşkilatı olan UNESCO-ya üzv qəbul edilib. 1996-cı ildə UNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

### 30 il əvvəl...

**4 iyun 1993-cü ildə** Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələr qiyam qaldırıb. Qiyamçılarla hökumət qüvvələri arasında silahlı toqquşmada hər iki tərəfdən 30-dan çox insan həlak olub. Bu hadisə Azərbaycanda hərbi-siyasi böhranı kritik həddə çatdırıb, ölkə vətəndaş müharibəsi astanasına gəlib.

**Hazırladı: V.Orxan**

# Braziliyada Azərbaycanın Müstəqillik Günü münasibətilə konsert

Braziliya Federativ Respublikasının paytaxtı Braziliya şəhərində Azərbaycanın Müstəqillik Günü münasibətilə diplomatik ziyafət, həmçinin Xalq artisti, ustad musiqiçi Ənvər Sadıqov və pianoçu bəstəkar, Əməkdar artist Emil Əfrasiyabın iştirakı ilə konsert təşkil olunub.



Azərbaycanın Braziliyadakı Səfirliyindən bildirilib ki, tədbir Braziliyanın Hərbi orkestrinin ifasında hər iki ölkənin himnlərinin səsləndirilməsi ilə başlayıb.

Çıxış edən səfir Rəşad Novruz ölkəmizin qədim adət-ənənələrə, zəngin sərvətlərə, qədim tarixə və möhkəm müstəqillik təməlinə malik olduğu barədə söz açıb.

Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri senator Nelsinyo Trace və Braziliya Xarici İşlər Nazirliyinin rəsmisi təbrik çıxışı ediblər. Çıxışlarda Azərbaycanın Braziliya üçün regionda əhəmiyyətli tərəfdaş olduğu, ikitərəfli münasibətlərin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Tədbir rəngarəng musiqi proqramı ilə davam edib. İfaçılarımız tərəfindən "Yenilməz batalyon", "Əhməd haradadır?" filmlərindən musiqilər, "Uzundərə" rəqsi, "Şərq və Qərb" kompozisiyası, digər nümunələr, eləcə də Emil Əfrasiyabın Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi "Ataya məktub" əsəri ifa olunub. Musiqiçilərin çıxışı böyük maraqla qarşılanıb.

Tədbirdə Braziliya rəsmiləri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

# "Qızıl palma budağı" bu dəfə Fransada qaldı

## Kann festivalının baş mükafatını Jüstin Trienin filmi qazanıb...

Xəbər verdiyimiz kimi, 16-27 may tarixlərində 76-cı Kann Film Festivalı keçirilib. Festivalın əsas müsabiqə proqramında baş mükafat – "Qızıl palma budağı" uğrunda 19 film yarışıb. Festivalın son günü qalib və müxtəlif nominasiyalar üzrə mükafatçılar elan edilib.



İsveç rejissoru, "Qızıl palma budağı"nın ikiqat qalibi Ruben Estvudun başçılıq etdiyi jürinin qərarı ilə festivalın baş mükafatına fransız rejissor Jüstin Trie (Justine Triet) "Düşmə trayektoriyası" ("Düşmə anatomiyası") filminə görə layiq görülüb. 45 yaşlı xanım rejissor tammetrajlı ilk filmini 2013-cü ildə çəkib və bu onun böyük kinoda sayca 4-cü işidir. Film ərinin qayadan yıxılaraq müəmmalı şəkildə ölməsindən sonra cinayət şübhəsi ilə həbs edilən alman qadın yazıçının (aktrisa Sandra Hüller) hekayəsindən bəhs edir. Hadisənin yeganə şahidi onun kor oğludur və o, anasının günahsız olduğuna şübhə etməyə başlayır.

Kann Film Festivalının ikinci mükafatı sayılan Qran-pri (Grand Prix) ilə britaniyalı rejissor Conatan Qlazerin (Jonathan Glazer) "Maraq zonası" filmi təltif olunub.

Əsas müsabiqə proqramının üçüncü dərəcəli mükafatı olan "Jüri mükafatı"na (Prix du Jury) isə Finlandiya rejissoru Aki Kaurismakinin "Tökülmüş yarpaqlar" filmi layiq görülüb.

Digər nominasiyalara gəlincə, "Ən yaxşı qadın rolu" mükafatını türkiyəli aktrisa Merve Dizdar ("Quru otlar üstünə" filmi, rejissor Nuri Bilge Ceylan) qazanıb. İstanbuldan əyalət kəndinə təyin olunmuş müəllimənin həyatından bəhs edən film yaşadığı ruh qaraldan gerçəklərə rəğmən gələcəyə ümidlərini itirməyən gənc və tənha insanların hüznlü hekayəsidir.

"Ən yaxşı kişi rolu" mükafatına alman rejissor Vim Vendersin "Gözəl günlər" filmində ayaqyolu təmizləyən qəhrəmanı oynayan yaponiyalı aktyor Koji Yakuşo layiq görülüb.

"Ən yaxşı rejissor" nominasiyası üzrə Vyetnam əsilli Fransa rejissoru Çan An Hunq ("Doden Buffanın raqusu" filmi) təltif olunub.

"Ən yaxşı ssenari" mükafatını isə yaponiyalı Hirokadzu Koreedanın "Bədheybət" ("Monster") filminin ssenarisini yazmış həmvətəni Yuji Sakamoto qazanıb.

**V.Kamal**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5047. **Sifariş:** 1427
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641